# "Qadan alaram..."

İngilis səfir qeyri-adi tvit paylaşıb



**"Qadan alaram, Gəncənin ruhunu Bakıda da hiss edirəm".**

"Şərq"in məlumatına görə, bunu Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Auld tviter hesabında yazıb. O, piştaxtanın qarşısında çəkdirdiyi fotosunu paylaşıb.

Səfirin tviti izləyicilərin marağına səbəb olub. Böyük Britaniya rəsmisinin tvitinə "qada görməyəsiniz, cənab səfir", "Sağ olun ki, Gəncəmizi bizim qədər siz də sevirsiz" kimi şərhlər gəlib. İfaçı Elnarə Xəlilova da "Cənab səfir, sizə azərbaycanlı olmaq çox yaraşır" -, deyə həmin tvitə rəy bildirib.

**Aygün**



## İstanbul 2023 ildə Türk Dünyasının Gənclik Paytaxtı seçilib

**İstanbul 2023 ildə Türk Dünyasının Gənclik Paytaxtı seçilib.**

Bu barədə Türk Dövlətləri Təşkilatı məlumat yayıb.

*Qeyd olunub ki, buna dair sənəd İstanbulda TDT-nın Baş katibinin iştirakı ilə imzalanıb.*


№ 77 (5838) 2023-cü il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 5 may 2023-cü il (cümə)




# Bütün ictimai əyləncə yerləri bağlı olacaq

Türkiyədə prezident və parlament seçkiləri ilə bağlı məhdudiyyətlər qüvvəyə minir

**Türkiyədə 14 may 2023-cü il bazar günü keçiriləcək Prezident və 28-ci çağırış parlament seçkilərinə 10 gün qalmış məhdudiyyətlər qüvvəyə minir.**

Bu barədə Yüksək Seçki Şurasının (YSK) müvafuq qərarında deyilir.

*Qeyd olunub ki, səsvermə gününə 10 gün qalmış yazılı, şifahi və videogörüntü şəklində namizədlərin lehinə və ya əleyhinə, seçicilərin qərarına təsir edəcək hər hansı yayımın aparılması və sorğuların keçirilməsi qadağan olunur.*

(səh.2)

# Bu gün sülh danışıqlarının nəticəsi məlum olacaq

Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında danışıqların yekun raundu keçirilib



**ABŞ-də Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında ikitərəfli danışıqların yekun raundu keçirilib.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə bildirib.

Danışıqlarda ABŞ dövlət katibi Entoni Blinken də iştirak edib.

Danışıqların əsas mövzusu sülh sazişidir.

*Xatırladaq ki, mayın 1-də ABŞ-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və ABŞ dövlət katibi Entoni Blinken arasında üçtərəfli görüş keçirilib. Bundan sonra Corc Şultz adına Xarici İşlər üzrə Milli Təlim Mərkəzində iki ölkənin xarici işlər nazirlərinin ikitərəfli görüşü keçirilib. Danışıqlar mayın 2-də və 3-də ikitərəfli formatda davam etdirilib.*



## Qarabağın kəndləri bir-bir qurulur

Prezident İlham Əliyev Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarına səfər edib

**Prezident İlham Əliyev mayın 4-də Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarına səfər edib.**

Dövlət başçısı Laçın rayonunda Güləbird kənd yaşayış məntəqəsinin, Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin, inzibati binanın, 600 şagird yerlik tam orta məktəbin, 91 çarpayılıq Mərkəzi Xəstəxananın, Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin təməllərini qoyub. Dövlət başçısına Xanlıq kəndində görüləcək işlər barədə məlumat verilib. Bildirilib ki, kənd Qubadlı rayonunun mərkəzindən 16 kilometr məsafədə, Həkəri çayının sahilində yerləşir.

(səh.2)

## Qarabağdakı əməliyyat şəraiti müzakirə olunub

Zakir Həsənov Rusiya sülhməramlılarının yeni komandanını qəbul edib



**Mayın 4-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin yeni komandanı general-polkovnik Aleksandr Lentsovu qəbul edib.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, görüşdə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Qarabağ iqtisadi rayonundakı əməliyyat şəraiti müzakirə olunub.

# "Bir həftəyə öldürən" xəstəlik...

Yayılan məlumatlar reallığı əks etdirmir



**Son illər xarici ölkələrdə yayılan yoluxucu xəstəliklərin bizim üçün də ciddi təhlükələr yaratdığı məlumdur. Yayılan xəstəliklər əsasən qrip mənşəli xəstəliklərdir ki, bundan da insanlar ciddi narahatlıq keçirir.**

"Quş qripi", "Donuz qripi", COVİD-19, "Meymun çiçəyi" kimi viruslar Azərbaycandan da yan keçməyib. Bildirək ki, dünyada yayılması ehtimal edilən virus mənşəli xəstəliklər barədə əvvəlcə proqnozlar verilir, sonra isə bu xəstəliklərin yayıldığının şahidi oluruq. Xarici media yeni yoluxucu xəstəliyin yayılacağı barədə məlumat yayıb.

(səh.5)



## Nazirlik para işinə qarışmır

Emin Əmrullayev özəl ümumtəhsil müəssisələrindəki qiymətlərdən danışıb

**"Özəl ümumtəhsil müəssisələrində təhsil qiymətləri valideyn və sahibkarlıq fəaliyyəti ilə məşğul olan qurum arasında olan məsələdir".**

Bunu elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında bildirib.

O deyib ki, nazirlik təhsil müəssisələrinin əsasən pedoqoji fəaliyyətini tənzimləyir: "Tədris planlarının Azərbaycanda mövcud olan standartlara uyğun təşkilinə nəzarət edirik".

## Deputat apteklərdən narazıdır

"Ölkəni keyfiyyətsiz məhsullar poliqonuna çevirmək olmaz"



**"Hansısa qida əlavəsini alırsan, üzərində yazılır ki, xərçəngdən prostatın müalicəsinə qədər kömək edir".**

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deputat Rüfət Quliyev bildirib.

Deputat deyib ki, Azərbaycanı keyfiyyətsiz məhsullar poliqonuna çevirmək olmaz: "İnsanların səhhəti üçün zərərli olan xaricdən gətirilən, o cümlədən daxildə işbaz sahibkarların istehsal etdiyi məhsulların nə satışına, nə də istehsalına icazə vermək olar.

(səh.4)

## 5 nəfər vəfat edib

46 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 46 yeni yoluxma faktı qeydə alınıb, 61 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 5 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 831 460 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 820 953 nəfər müalicə olunaraq sağalıb, 10 250 nəfər vəfat edib, aktiv xəstə sayı 257 nəfərdir. Ölkədə son sutka ərzində 1 471, hazırkı dövrədək isə 7 593 644 test aparılıb.



## İran hələ ki müsbət addım atmayıb

Belə olan halda Bakı-Tehran münasibətlərinin normallaşmasından söhbət gedə bilməz

(səh.3)



## "Həyatda hər birimizin bir arzusu var"

Sabiq deputat: "Xankəndidə doğulub, böyüyən biri olaraq ölkə başçısını o torpaqlarda qarşılayacağım günü gözləyəcəm"

(səh.5)

# Qarabağın kəndləri bir-bir qurulur

## Prezident İlham Əliyev Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarına səfər edib

**Prezident İlham Əliyev mayın 4-də Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarına səfər edib. Dövlət başçısı Laçın rayonunda Güləbird kənd yaşayış məntəqəsinin, Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin, inzibati binanın, 600 şagird yerlik tam orta məktəbin, 91 çarpayılıq Mərkəzi Xəstəxananın, Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin təməllərini qoyub. Dövlət başçısına Xanlıq kəndində görüləcək işlər barədə məlumat verilib.**



Bildirilib ki, kənd Qubadlı rayonunun mərkəzindən 16 kilometr məsafədə, Həkəri çayının sahilində yerləşir. Yaşayış məntəqəsinin layihələndirilən ərazisi elə Xanlıq kəndinin köhnə ərazisini əhatə edir və ümumi sahəsi 273 hektardan çoxdur. Qeyd edilib ki, birinci mərhələdə kəndə 1357 nəfərin köçürülməsi üçün 356 fərdi evin tikintisi nəzərdə tutulur. İnşa ediləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. Perspektivdə Xanlıq kəndində 4 mindən çox sakinin (1024 ailə) məskunlaşdırılması planlaşdırılıb. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Həmçinin inzibati bina, məktəb, uşaq bağçası, ailə-sağlamlıq, klub-icma və idman-sağlamlıq mərkəzləri fəaliyyət göstərəcək.

Həmçinin Prezident Qubadlı rayonunun Mahruzlu kəndinin təməlinin qoyulması mərasimində iştirak edib. Dövlət başçısına kəndin layihəsi barədə məlumat verilib. Qeyd olunub ki, kənd Qubadlı rayonunun mərkəzindən 19 kilometr məsafədə yerləşir. Kəndin layihələndirilən ərazisi 197 hektar təşkil edir. Gələcəkdə bu kənddə 2700-dən çox sakinin, başqa sözlə, 690 ailənin yaşaması planlaşdırılıb. Mahruzlu kənd inzibati ərazi dairəsində yerləşən Alaqurşaq və Muğanlı kəndləri də bu yaşayış məntəqəsinə daxil olmaqla layihələndirilib. Birinci fazada kənddə 145 evin tikilməsi və 649 nəfərin məskunlaşdırılması planlaşdırılır. Diqqətə çatdırılıb ki, kənddə əhalinin məşğulluğu üçün hər cür şərait təmin ediləcək.

Prezident İlham Əliyev Qubadlı rayonunun Zilanlı kəndinin də təməlinin qoyulması mərasimində iştirak edib. Diqqətə çatdırılıb ki, kənd Qubadlı rayonunun mərkəzindən 20 kilometr məsafədə, Həkəri və Bərgüşad çaylarının qovuşduğu ərazidə yerləşir. Zilanlı Zəngilan rayonunun Ağalı kəndi ilə qonşudur. Birinci mərhələdə burada 159 evin tikintisi və 772 nəfərin məskunlaşdırılması nəzərdə tutulub. Tikiləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. Gələcəkdə bu kənddə 2520 nəfərin (630 ailə) yaşaması planlaşdırılıb.

Dövlət başçısı İlham Əliyev Qubadlı şəhərində 91 çarpayılıq Mərkəzi Xəstəxana binasının təməlinin qoyulması mərasimində iştirak edib. Ölkə rəhbərinə xəstəxana binasının layihəsi barədə məlumat verilib. Bildirilib ki, 4,5 hektardan çox ərazidə inşa olunacaq bu tibb müəssisəsi inzibati binadan, stasionar və ambulator xidmət hissələrindən ibarət olacaq. Stasionar xidmət hissəsində qəbul, terapiya, cərrahiyyə, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri fəaliyyət göstərəcək. Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından ibarət olacaq. Müalicə ocağı ən müasir tələblərə cavab verən tibbi avadanlıq, o cümlədən kompüter-tomoqrafiya, maqnit-rezonans tomoqrafiya, angioqrafiya və digər cihazlarla təchiz ediləcək.

Mayın 4-də Zəngilan rayonunun Cahangirbəyli kəndinin təməlqoyma mərasimi də olub. Dövlət başçısına kənddə görüləcək işlərlə bağlı məlumat verilib. Bildirilib ki, kənd perspektivdə 2520 nəfər əhalinin (573 ailə) yaşaması üçün planlaşdırılıb. Cahangirbəyli kəndində birinci mərhələdə iki, üç, dörd və beş otaqlı olmaqla ümumilikdə 242 fərdi evin tikintisi nəzərdə tutulur. Qeyd edilib ki, birinci mərhələdə burada 1200 nəfərin məskunlaşdırılması planlaşdırılır. Cahangirbəyli kəndində fərdi evlərlə bərabər, bloklaşdırılmış üçmərtəbəli binaların inşası da nəzərdə tutulur.

Dövlət başçısı Zəngilan şəhərində inzibati binanın təməlinin qoyulması mərasimində də iştirak edib. Dövlət başçısına layihə barədə məlumat verilib. Bildirilib ki, inzibati bina Zəngilan şəhərinin mərkəzində, əsas küçələrin kəsişməsində yerləşir. Bu ərazi əsas ictimai obyektlərə, təhsil müəssisələrinə, peşə məktəbinə, memorial parka və məscidə yaxındır. Qeyd olunub ki, üçmərtəbəli bina quruluşuna görə şəhərin müxtəlif yerlərindən görünə biləcək. Layihə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev inzibati binanın təməlini qoyub.



Prezident "Azərenerji" ASC-nin Zəngilan rayonunda "Sarıqışlaq" Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə də tanış olub. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verib. Bildirilib ki, Araz çayının sol qolu olan Oxçuçayın üzərində yerləşən stansiyanın qoyuluş gücü 10,5 meqavatdır. Su Elektrik Stansiyasında orta illik elektrik enerjisi istehsalı 26,7 milyon kilovat-saat nəzərdə tutulur. Həmçinin "Şayıflı" Kiçik Su Elektrik Stansiyasından çıxan suyun "Sarıqışlaq" SES-ə ötürülməsi məqsədilə nəzərdə tutulmuş derivasiya borusunun çəkilməsi üzrə işlər davam edir. Derivasiya tipli su elektrik stansiyasının suqəbuledicisi ilə stansiyaarası məsafə 5239 metrdir. "Sarıqışlaq" SES-in turbinlərindən keçən suyun heç bir itki olmadan "Zəngilan" KSES-ə ötürülməsi istiqamətində işlər davam etdirilir. Bu stansiyada 110 kilovoltluq açıq paylayıcı qurğunun tikintisi, istehsal olunacaq elektrik enerjisinin enerjisistemə inteqrasiyası və stansiyada avtomatik idarəetmə sisteminin qurulması da nəzərdə tutulub. Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Sarıqışlaq" SES-də il ərzində 33,2 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq. Dövlət başçısına Zəngilan, Laçın və Kəlbəcər rayonlarında tikilən Su Elektrik stansiyaları barədə də məlumat verilib. Bildirilib ki, hazırda "Azərenerji" tərəfindən Zəngilan və Laçın rayonlarında 7 yerdə ümumi gücü 70,5 meqavat olan Su Elektrik stansiyalarının tikintisi aparılır. Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək bu stansiyaların hər biri rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olmaqla yanaşı, stansiyalara Bakıdan və digər yerlərdən nəzarət etmək əlçatan olacaq. Su Elektrik stansiyalarında il ərzində ümumilikdə 230 milyon kilovat-saat ekoloji cəhətdən təmiz yaşıl hidroenerjinin istehsalı nəzərdə tutulub. Qeyd edək ki, bugünədək "Azərenerji" tərəfindən 11 yerdə ümumi gücü 53,6 meqavat olan Kiçik Su Elektrik stansiyaları yenidən qurulub. Onlardan ümumi gücü 27 meqavat olan 5 stansiya Kəlbəcər rayonunda açılışa hazır vəziyyətə gətirilib. Beləliklə, böyük Zəfərdən sonra işğaldan azad edilən ərazilərdə tikilən Su Elektrik stansiyalarının ümumi sayı 25-ə çatdırılacaq və 200 meqavata yaxın ekoloji cəhətdən təmiz, hidro yaşıl enerji istehsal etmək mümkün olacaq.

Zəngilanda hotel kompleksinin təməlqoyma mərasimi də olub. Prezident tədbirdə iştirak edib. Prezidentin i şlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına kompleksin layihəsi barədə məlumat verib. Bildirilib ki, Zəngilanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Hotel müasir səviyyədə inşa olunacaq, rayona səfərə gələnlərin rahatlığı üçün burada hər cür şərait yaradılacaq. Diqqətə çatdırılıb ki, 110 nömrədən ibarət olacaq hotel binasında konfrans, iclas və banket zalları, fitnes və spa mərkəzləri, qapalı və açıq hovuzlar, restoran və uşaq əyləncə mərkəzləri yaradılacaq. Hotel kompleksinin ərazisində, həmçinin 15 kotec də qonaqların istifadəsinə veriləcək. Bir sözlə, müxtəlif çeşidli yüksək xidmətlərin göstəriləcəyi hotel kompleksi müasir standartlar səviyyəsində inşa olunacaq.

Prezident İlham Əliyev Zəngilan Konqres Mərkəzinin tikintisi ilə də tanış olub. Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına görülən işlər barədə məlumat verib. Bildirilib ki, Konqres Mərkəzinin layihələndirilən ərazisi 2,2 hektardır. Burada Mərkəzin binası ilə yanaşı, restoran, pavilyon da inşa olunur. Konqres Mərkəzi 605 yerlikdir. Buradakı restoranın isə 240 yerlik olması nəzərdə tutulub. Bu ərazidə müvafiq yaşıllıq zonaları salınacaq, avtomobillər üçün yerüstü parklanma sahəsi yaradılacaq. Ekoloji memarlıq konsepsiyasına əsasən, Mərkəzin damı yaşıllıq zolağı və günəş panelləri ilə əhatə olunacaq. Konqres Mərkəzində beynəlxalq və ölkə səviyyəli müxtəlif tədbirlər keçiriləcək.

Prezident İlham Əliyev Cəbrayıl rayonunda Xudafərin qəsəbəsinin təməlinin qoyulması tədbirində də iştirak edib.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına qəsəbədə görüləcək işlər barədə məlumat verib.

Qeyd edilib ki, qəsəbə Azərbaycan xalqı üçün tarixi əhəmiyyət daşıyan Xudafərin körpüsünün yaxınlığında, yeni dəmir yolu xəttindən və avtomobil yolundan 7 kilometr məsafədə salınır. Qəsəbənin layihələndirilən ümumi ərazisi 25 hektardır. Baş plana əsasən, gələcəkdə burada 149 ev tikiləcək. Qəsəbədə birinci mərhələdə 20 evin inşası nəzərdə tutulur. Burada iki, üç, dörd və beş otaqlı fərdi evlər tikiləcək. Hər evin həyətyanı sahəsi 600 kvadratmetr təşkil edəcək. Qəsəbəyə birinci növbədə 77 sakin köçürüləcək.

Xudafərin qəsəbəsində məktəb, uşaq bağçası, inzibati bina, məscid, bazar, çoxfunksiyalı bina (ticarət müəssisələri, tikinti materiallarının satış zonası, ictimai qida müəssisələri və s.), mədəniyyət evi, "Karvansaray" hotel və icma evi də yaradılacaq. Bundan başqa, Araz çayının sahilində və Xudafərin körpüsünün yaxınlığında parkın salınması da nəzərdə tutulub.

Dövlət başçısı qəsəbənin inkişaf planı barədə videoçarxa baxıb.

Sonra Prezident İlham Əliyev Xudafərin qəsəbəsinin təməlini qoyub.

**İsmayıl**

# QDİƏT-in toplantısında qalmaqal oldu

## Mustafa Şentop Ukrayna tərəfinin Rusiya nümayəndə heyətinin çıxışına müdaxiləsinin qarşısını aldı

**Qara Dəniz İqtisadi Əməkdaşlıq Parlament Assambleyasının (QDİƏT) Zirvə toplantısında Ukrayna nümayəndə heyəti Rusiya nümayəndə heyətinin çıxışına müdaxilə etməyə cəhd göstərib.**



Trend xəbər verir ki, iclasda sədr qismində iştirak edən Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop Ukrayna tərəfinin bu cəhdinin qarşısını alıb.

Belə ki, Rusiya nümayəndə heyətinin rəhbərinin müavini Olqa Timofeyevanın çıxışı zamanı Ukrayna nümayəndə heyəti bayraqla etiraz təşəbbüsü edib.

Timofeyeva çıxış edərkən Ukrayna nümayəndə heyətinin üzvləri onun arxasında dayanaraq, ultra-millətçi Sağ Sektor təşkilatının bayrağını açıb və Rusiya əleyhinə şüarlar səsləndirib. Rusiya tərəfi ukraynalıların bu hərəkətinin qarşısını almağa çalışarkən tərəflər arasında qısamüddətli mübahisə yaranıb.

TBMM sədri Ukrayna heyətinin davranışına sərt reaksiya verib.

"Bu iclası kiminsə pozmasına icazə verməram. Hər kəs öz fikrini bildirə bilər, buna heç bir manеə yoxdur. Amma bu cür hərəkətlər edilsə, belə görüşlər parlament iclası olmaqdan çıxacaq. Gedin bunu küçədə edin. Burada icazə vermirəm", - M.Şentop deyib.

İclasda fasilə verən M.Şentop qaydaları pozan tərəfin zaldan çıxarılmasını tələb edib. O, söz verilmədən danışmaq istəyənlərin də çölə çıxarılacağını vurğulayıb.

# Tezliklə sülh olmayacaq

## Sadəcə, Rusiyanın hazırkı təcrid olunmuş vəziyyəti və ciddi şəkildə zəifləməsi müəyyən ümidlər doğurur

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla ermənistanlı həmkarı Ararat Mirzoyan arasında Vaşinqtonda aparılan ikitərəfli danışıqlar başa çatıb.**



ABŞ Dövlət Departamenti məlumat yayıb ki, "Corc Şultz Milli Xarici İşlər Təlim Mərkəzi"ndə keçirilən 4 günlük müzakirələrin bağlanış sessiyasında dövlət katibi Entoni Blinken də iştirak edib. Departamentin mətbuat katibinin müavini Vedant Patel deyib ki, rəsmi Vaşinqton Azərbaycan və Ermənistan arasında birbaşa dialoqu davamlı sülhə nail olmaq üçün açar sayır. O qeyd edib ki, Amerika Birləşmiş Ştatları Bakı və İrəvan arasında birbaşa dialoqun mümkünlüyünə inanır. Patel əlavə edib ki, Qafqaz danışıqları üzrə baş müşavir Lui Bono bu prosesdə fəal iştirak etməkdə davam edir. Ermənistanın "Hraparak" qəzeti yazıb ki, xarici işlər nazirlərinin danışıqlarında Azərbaycanın Ermənistandakı anklavlarının qaytarılması da müzakirə olunub. Nəşr rəsmi mənbəyə istinadla Ermənistanın danışıqlarda münasibətlərin normallaşdırılması haqqında sazişi imzalamağa məcbur edildiyini iddia edib. Məlumatda Qarabağ məsələsinə də diqqət çəkilib: "Ermənistan buna qarşı deyil və çoxdan açıq şəkildə bəyan edib ki, Qarabağ məsələsini sənədin imzalanması üçün ilkin şərt hesab etmir. Qarabağ ermənləri üçün təhlükəsizlik zəmanəti almaq şərti ilə bölgəni faktiki olaraq Azərbaycanın bir hissəsi kimi tanımağa hazırdır". Qəzet müzakirələrin həm də anklavlardan getdiyinə diqqət yönəldib.

**Azərbaycan Demokratik Partiyasının sədr müavini Həsrət Rüstəmov "Şərq"ə açıqlamasında vurğulayıb ki, ABŞ-də keçirilən görüş sülhün əldə edilməsi və regiondakı siyasi münasibətlərin gələcək inkişafı baxımından əhəmiyyətlidir. Partiya təmsilçisinin sözlərinə görə, xüsusilə Cənubi Qafqazda sülhün və əmin-amanlığın əldə edilməsi məsələsinin Rusiyanın himayəsindən çıxarılması baxımından bu danışıqlar önəmlidir:** "Amma uzun müddət ABŞ-nin Rusiya və Fransa ilə birlikdə guya Azərbaycan-Ermənistan arasında sülh əldə edilməsi üçün fəaliyyətini də nəzərə almalıyıq. Qərbin mövqeyi məsələyə ədalətli yanaşma baxımından Rusiya ilə o qədər də fərqlənməyib. O baxımdan indiki danışıqların nəticəsinə birmənalı optimist yanaşmaq qeyri-mümkündür. Sadəcə, Rusiyanın hazırkı təcrid olunmuş vəziyyəti və beynəlxalq proseslərdə mövqeyinin ciddi şəkildə zəifləməsi müəyyən ümidlər doğurur. ABŞ tərəfindən verilən müsbət siyasi diplomatik mesajlara baxmayaraq, bu görüşlərin tez bir zamanda konkret və ciddi nəticələrə səbəb olacağını düşünmürəm. Ona görə ki, Moskva dünyadakı siyasi nüfuzunu sürətlə itirsə də, çox təəssüf ki, bizim regionda təsir imkanları hələ də yüksək olaraq qalır. Başqa cür desək, Rusiyanın tamamilə çökməsini və ya imperiya ambisiyalarından imtina etməsini görmədən Cənubi Qafqazda davamlı sülhdən danışmaq o qədər də real görünmür".

**İsmayıl Qocayev**

# Bütün ictimai əyləncə yerləri bağlı olacaq

## Türkiyədə prezident və parlament seçkiləri ilə bağlı məhdudiyyətlər qüvvəyə minir



**Türkiyədə 14 may 2023-cü il bazar günü keçiriləcək Prezident və 28-ci çağırış parlament seçkilərinə 10 gün qalmış məhdudiyyətlər qüvvəyə minir.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə Yüksək Seçki Şurasının (YSK) müvafuq qərarında deyilir.

Qeyd olunub ki, səsvermə gününə 10 gün qalmış yazılı, şifahi və videogörüntü şəklində namizədlərin lehinə və ya əleyhinə, seçicilərin qərarına təsir edəcək hər hansı yayımın aparılması və sorğuların keçirilməsi qadağan olunur.

Bundan əlavə, seçki gününə dair qərarlar da açıqlanıb. Belə ki, seçki günü saat 06:00-dan 24:00-dək spirtli içkilərin satışı qadağan ediləcək. Yaşayış məntəqələrində təhlükəsizliyin və asayişin qorunmasına cavabdeh olan şəxslərdən başqa heç kim silah gəzdirə bilməyəcək. Seçki günü qəhvəxana, çayxanalar və internet kafe kimi bütün ictimai əyləncə yerləri bağlı olacaq. Restoranlarda yalnız yeməklər veriləbilər. Seçki günü saat 18:00-dan sonra isə toylar keçirilə bilər.

YSK-nın qərarlarına əsasən, saat 18:00-dək mətbuatda seçkilər və onların nəticələri ilə bağlı xəbər proqnozları və şərhlər vermək qadağan ediləcək.

Saat 18.00-21.00 arasında YSK-nın seçki ilə bağlı verəcəyi xəbərlər və bildirişlər dərc olunacaq. Saat 21:00-dan sonra bütün yayımların aparılması sərbəst olacaq.

Seçkilərinin ikinci tura keçəcəyi təqdirdə eyni müddəalar mayın 28-də də təbiq olunacaq.

# İran hələ ki müsbət addım atmayıb

## Belə olan halda Bakı-Tehran münasibətlərinin normallaşmasından söhbət gedə bilməz



**Prezident İlham Əliyev mayın 3-də Şuşada keçirilən beynəlxalq konfransda Azərbaycan-İran əlaqələrindən danışıb. Dövlət başçısı vurğulayıb ki, Azərbaycan ilə İran arasında münasibətlər hazırda heç zaman olmadığı qədər çox aşağı səviyyədədir.**

Ölkə rəhbərinin sözlərinə görə, münasibətlərin həmin səviyyədə qalacağı, yoxsa daha aşağı düşəcəyi və ya qalxacağı barədə əvvəlcədən bir şey söyləmək çox çətindir. İki ölkə arasında münasibətlərlə bağlı proqnozlaşdırmanın çox mürəkkəb olduğunu qeyd edən dövlət başçısı bildirib ki, son günlər İran rəsmilərindən bəzi məktublar gəlir: "Bəzi telefon danışıqları olub ki, münasibətlər normallaşsın. Lakin birmənalı olaraq, tələblərimiz legitim və əsaslıdır. Əgər bu tələblər yerinə yetirilərsə, onda biz normallaşma haqqında danışa bilərik. Yetirilməsə, bu, belə də qalacaq. Bir daha deyirəm ki, bu, bizim seçimimiz deyil. Lakin İranda hər kəs, bütün dairələr nəhayət anlamalıdır ki, hədə və terror dili Azərbaycanla işləməyəcək. Onlar bunu nə qədər tez anlasalar, biz normallaşma əlamətlərini bir o qədər tez görə bilərik". Prezident Tehrandakı səfirliyimiz barədə də söz açıb: "Hazırda Tehrandakı səfirliyimiz bağlıdır. Bu, mənim qərarımdır, çünki mənim üçün insanlarımızın təhlükəsizliyi və həyatı daha vacibdir".

**İki ölkənin gərgin münasibətini "Şərq"ə dəyərləndirən millət vəkili Elman Nəsirli bildirib ki, dövlət başçısı İlham Əliyevin müəyyən etdiyi siyasət kursunun prioritet istiqaməti ikitərəfli münasibətlər formatıdır. Deputatın sözlərinə görə, ikitərəfli münasibətlər formatının öz daxilində fərqli istiqaməti isə qonşularla əlaqələrdir:** "Azərbaycan öz dövlət siyasətinin fəlsəfəsinə uyğun olaraq hər zaman İranla münasibətlərin normal olmasında maraqlı olub. İkitərəli münasibətlərin normal və yüksək səviyyəsinin təminatı üçün hər iki tərəfin eyni istəkdə olması vacibdir. Amma təəssüf ki, son zamanlar İranın Azərbaycana münasibətdə qərəzli mövqe tutmasının dəfələrlə şahidi olmuşuq. İran Ermənistanı açıq-aşkar dəstəkləyib. Vurğulayıb ki, Ermənistanın ərazi bütövlüyü İran üçün "qırmızı xətt"dir. Tehranda Azərbaycan diplomatlarına qarşı terror aktı baş verib, sərhədimizdə hərbi təlimlər keçirilib, hava məkanımız pozulub. Bunlar heç bir halda qonşuluq münasibətlərinə uyğun gəlməyən, əksinə, düşmən Ermənistanın yanında yer almaq anlamına gələn bir davranışdır. Cənab Prezident Şuşada keçirilən beynəlxalq tədbirdə Azərbaycan-İran münasibətlərinə bir daha toxundu. Dövlət başçısı qeyd etdi ki, ikitərəfli münasibətlərdə çox kövrək də olsa müəyyən müsbət tendensiyalar müşahidə olunur. Məktublaşmalar, telefon danışıqları həyata keçirilir. İranın sanki əvvəlki siyasətindən imtina etməsi ilə bağlı davranışı diqqətdən yayınmır. Amma bu davranış hələ də aydın və birmənalı şəkildə deyil. Ona görə də İranın anti-Azərbaycan siyasətindən geri çəkildiyini söyləmək, əleyhimizə addım atmaqdan birdəfəlik imtina etdiyi qənaətinə gəlmək çox çətindir".

Parlament üzvü vurğulayıb ki, nə qədər ki, İran ikitərəfli münasibətlərin pozulmasının əsas səbəblərini aradan qaldırmayıb, Bakı-Tehran münasibətlərinin normallaşmasından söhbət gedə bilməz: "Dövlət başçısının İranla bağlı səsləndirdiyi fikirlər Tehran hökuməti üçün ciddi mesajdır. Bu həm də onu göstərir ki, Azərbaycan mehriban qonşuluq münasibətlərinə sadiqdir, sədaqətlidir".

**İsmayıl Qocayev**



# Media məkanında ciddi bir kampaniya aparılmalıdır

## "Ermənistanın yanında olan İran və Rusiya Azərbaycana qarşı birgə addımların atılmasında öz hərəkətlərini koordinasiya edirlər"

**"Prezident İlham Əliyevin fikirləri və addımları doğru istiqamətdədir. Hazırda sivil dünyanın əsas problem yaşadığı ölkələrin ikisi də Ermənistanın yanında yer alıb".**

*Bunu "Şərq"ə ReAL Partiyasının sədr müavini Natiq Cəfərli Prezident İlham Əliyevin İranla Ermənistan arasındakı münasibətləri barədə fikirlərindən danışarkən bildirib. Onun sözlərinə görə, İran və Rusiya Ermənistanın iki böyük müttəfiqidir:* "Amma mövcud məsələni, problemi dünyada tanıtmağa çalışmalıyıq ki, bəzi ölkələrin də haqsız və hüquqsuz olaraq, ermənilərin yalan mövqelərinə ortaqlıq etməsini dəyişə bilək. Çünki bu, qeyri-səmimi olur. Azərbaycan Ukraynaya ən çox humanitar yardım göndərən ölkələrdən biridir. İranla ciddi problemlər yaşanır.

Amma yerli-yersiz bəzi dövlətlər Ermənistanı dəstəkləməyə çalışırlar. Dövlət başçımızın sözügedən çıxışının da təsirlərini artırmaq üçün media məkanında ciddi bir kampaniya aparılmalıdır. Ermənistanın yanında olan İran və Rusiya Azərbaycana qarşı birgə addımların atılmasında öz hərəkətlərini koordinasiya edirlər. Yəni bu, ölkəmizin haqq işində beynəlxalq hüquqa uyğun olaraq, addımlarına da dəstək verəcək".

*Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda konfransda iştirak edib. Dövlət başçısı bildirib: "Azərbaycanda yaşayan insanlar kimi biz İran ilə Ermənistan arasında olan münasibətlərdən o qədər də razı deyilik. Siyasətçi olaraq anlayırıq ki, hər ölkənin xarici siyasətində prioritetlər var. İran və Ermənistan qonşudurlar".*

**Sücayət Mehti**



# Türkiyənin cavab imkanları çoxdur

## "Terror təşkilatına abidə qoymaq, əlbəttə, türk millətinin heysiyyətinə toxunacaq"

**"İrəvanda "Nemezis" terror təşkilatına abidənin qoyulması Ermənistan dövlətinin terrorçu mahiyyətini ortaya qoyan növbəti faktdır. Bundan öncə də Zəngəzurda cinayətlər törətmiş və tutularaq 25 il həbs cəzasına məhkum edilmiş Qaregin Njdeyə heykəl qoyulması etirazlara səbəb olmuşdu".**

*Bu barədə "Şərq"ə açıqlamasında Türkiyənin Erciyes Universitetinin professoru, ermənişünas-alim Qafar Çaxmaqlı deyib. Professor bildirib ki, Njde alman faşistləri ilə əməkdaşlıq etmiş və SSRİ-yə qarşı erməni alman faşistlərinin tərkibində vuruşmuş legionun qurucularından biri idi:* "Bu faşistə heykəl qoyulması Rusiyanın da təpkilərinə səbəb olmuşdu. 1921-ci ildə Osmanlı dövlətinin daxili işlər naziri Tələt Paşanı öldürən Soğomon Teyleryana da bu ölkədə heykəl qoyulub. Kim biz türklərə qarşı vuruşmuşsa, terror etmişsə, bu ölkədə "qəhrəman" hesab olunur. Terrorçuların qəhrəmanlaşdırılması Ermənistan dövlətinin ideologiyasıdır. Təsadüfi deyil ki, Njdenin "Tsexakronizm" adlı faşist təlimi Ermənistanın keçmiş Prezidenti Serj Sarkisyanın başçılıq etdiyi Respublikaçılar Partiyasının rəsmi ideologiyası olaraq qalır. "Nemezis" Daşnaksütyun Partiyasının qərar verdiyi və həyata keçirdiyi terror tədbirlərinin adıdır. Terrorçubaşı Şahan Natalinin təşəbbüsü ilə 1919-cu ilin oktyabrında Erməni İnqilabçı Federasiyası - "Daşnaksütyun" Partiyasının İrəvanda keçirdiyi IX qurultayında bu adda terror təşkilatı yaradılıb. Türklərdən intiqam almağa başlamaq haqqında qərar verilib. Bəhanə də o idi ki, guya, Bakıda 1918-ci ildə erməni əhalisinin qətlini təşkil etmiş şəxslər və 1915-ci ildə erməniləri Osmanlı ərazisində "soyqırıma məruz qoyanlar" olub. Onlar dünyanın harasında olursa olsun, öldürülməli idilər". Qətlə yetiriləcək şəxslərin arasında həm Osmanlı imperiyasının, həm də Azərbaycan Xalq Cümhuriyyətinin keçmiş rəhbərləri var idi. "Nemezis"in siyahısına Türkiyənin və Azərbaycanın 650 nəfər dövlət xadiminin və ziyalısının adları salınmışdı. Onların içərisindən 41 nəfər "əsas günahkarlar" seçilmişdi. Bu sui-qəsdləri həyata keçirəcək terror təşkilatına da "Nemezis" adı verilmişdi".

*Qafar Çaxmaqlı vurğulayıb ki, erməni cinayətlərinin ortada olduğu bir zamanda bir terror təşkilatına abidə qoymaq, əlbəttə, türk millətinin heysiyyətinə toxunacaq:* "Münasibətlərin nizamlanması ilə bağlı danışıqların keçirildiyi bir vaxtda belə bir abidənin qoyulması o deməkdir ki, Ermənistan irqçi ideologiyadan əl çəkməyib. Türkiyə ilə münasibətlərin normallaşmasını istəmir. Nikol Paşinyanın bu əlaqələrin sahmana salınması ilə bağlı bəyanları da saxtadır. Türkiyənin terroru dəstəkləyən və təbliğ edən bir dövlətlə bağlı atacağı çox addımlar var. Zamanı gəldiyində Prezidentin sözçüsü İbrahim Kalının dediyi kimi, adekvat addımlar atıla bilər. Türkiyə XİN rəhbəri Mövlud Çavuşoğlu Türkiyənin Ermənistana hava məkanını bağlaması səbəbini açıq şəkildə bildirdi. Bu ölkə ilə əlaqələrin qurulması prosesinin getdiyi bir vaxtda düşməncəsinə davranış qəbuledilməzdir. İrəvanda "Nemezis" terror təşkilatına abidənin qoyulması göstərir ki, Ermənistan irqçi ideologiyadan, erməni "soyqırımı" adlı saxta iddiadan əl çəkməyəcək. Onların bu siyasətinə uyğun mövqe nümayiş etdirilməsi ən doğru addımdır".

**İsmayıl Qocayev**

# Tikinti sahəsində qanunsuzluq və özbaşınalıq hökm sürür

## İcazə səlahiyyəti bir orqana verilməli, bu orqan da şəhər və kəndləri nizama salmalıdır

**Tikintiyə icazələrin verilməsi üçün Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin səlahiyyətləri artırılmalıdır. Bunu deputat Rüfət Quliyev İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünən keçirilən iclasında deyib.**

Millət vəkili qeyd edib ki, əsasən Bakının qəsəbələrində və regionlarda bu hal müşahidə edilir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tikinti üçün icazəni verir, elə ki 3 daş qoyulur, bir də görürsən tökülüşdülər, hərə bir qara qovluqla gəlir, deyir ki, bunun sənədini göstər. Sənəd göstərilir, deyirlər ki, yox e, filan yerdən də icazə al. Qanun deyir ki, 12 metrə qədər olan tikintilərdə heç bir sual olmamalıdır. Amma yenə də gəlirlər, bu onun boynuna atır, o bunun boynuna atır. Bütün belə problemləri öz üzərinə götürmək üçün Dövlət Arxitektura və Şəhərsalma Komitəsində səlahiyyətlər olmalıdır".

Millət vəkili çox önəmli və ağrılı bir mövzuya toxunub. Lakin bu hal əsasən Bakının qəsəbələrində və regionlarda deyil, hər yerdə yaşanır, paytaxtın özündə də. Elə bir vəziyyət yaranıb ki, vətəndaş şəxsi mülkünün "krışa"sını təmir edəndə də, həyətdə ayaqyolu tikəndə də "uçastkovı" başda olmaqla icrası, bələdiyyəsi, FHN-ni, az qala "JEK" xadimələri də işə qarışıb "şirinlik" istəyirlər. Vermədinsə, dam örtüksüz qalacaqsan, yağış başına yağacaq. Ayaqyolu da ki... nəsə, daha özün bil, gör neynirsən.



"Bəli, millət vəkilinin də dediyi kimi, hündürlüyü 12 metrədək olan tikililər üçün heç bir icazə tələb olunmur"

**Mövzu ilə bağlı "Şərq"ə danışan sosiloq Elçin Bayramlı qeyd etdi ki, tikinti sahəsində qanunsuzluq və özbaşınalıq hökm sürür:**

- Bəli, millət vəkilinin də dediyi kimi, hündürlüyü 12 metrədək olan tikililər üçün heç bir icazə tələb olunmur. Tikiləcək obyektin, evin və sairənin planı Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edilir, deyəsən, 10-15 gün müddətndə müraciətə cavab verilməlidir. Cavabın verilmə müddəti keçirsə, vətəndaş icazə olmadan tikintiyə başlamaq hüququna malikdir. Əlbəttə ki, tikinti strateji obyektlərə ziyan vurmursa, dövlət mülkiyyəti olan torpaqlarda aparılmırsa, kommunikasiya xətlərinin altında və ya üzərində deyilsə. Buna da bir orqan nəzarət etməlidir - Şəhərsalma və Arxitektura Komitəsi. Qalan digər orqanlar tkinti sektorundan müxərrəs olmalıdırlar. Komitədə təqdim edilən layihələrə baxıb, yol-küçə infrastrukturunun qorunması şərtilə tikintiyə razılıq verməlidir. Tikintiyə icazə alınmasına bir neçə, hətta xeyli sayda orqan cəlb edilib deyə, vətəndaşlar əziyyət çəkir. Şikayətlərə də baxan yoxdur. Bütün bunlar korrupsiya və rüşvətxorluğa yol açır. Nəticə isə bundan ibarətdir ki, bu gün paytaxtda və Bakıətrafı qəsəbələrdə yarım milyona yaxın sənədsiz ev var. Və bu problem hələ də həllini tapmayıb.

**Məlahət Rzayeva**

# Firmalarla əlbirdirlər!

## Apteklər resept yazırlar

**"Apteklər dərmanların dövriyyəsinə məsul olan bir qurumdur. Onlar preparatların saxlanılması, satışı və utilizasiyasına nəzarət edir".**

Bunu "Şərq"ə tibb elmləri doktoru, professor Adil Qeybulla ötən ay 51 aptekdə yoxlama aparılması barədə danışarkən söyləyib. Onun sözlərinə görə, apteklərin bir çoxu özəl fəaliyyət göstərir, kommersiya qurumlarıdır: "Ona görə də yoxlamanın keçirilməsində əsas məqsəd dövriyyəyə nəzarətdir. Azərbaycanda qeydiyyatdan keçməyən dərmanların aptek şəbəkəsində olması qadağandır. Dərmanlar quru, sərin yerdə, bəziləri soyuducuda saxlanılmalıdır. Saxlanma müddəti bitmiş dərmanlar utilizasiya edilməlidir.



Aptekin başqa funksiyası yoxdur. Xəstəyə dərman tövsiyə etmək, hansısa dərmanı əvəzedicisi ilə dəyişmək aptekin ixtiyarında deyil. Təəssüf ki, onlar bu işlərlə də məşğuldurlar. Hətta resept yazırlar, bəzi dərmanları tövsiyə edirlər, firmalarla əlbir işləyirlər. Ona görə də apteklərin fəaliyyəti nizama salınmalıdır. Bu qaydaları pozan apteklər ciddi cəzalandırılmalıdır. Lakin dərman bazarında da problemlərin olduğunu diqqətdə saxlamalıyıq. Preparatların qeydiyyat sisteminə yenidən baxılmalıdır".

*Qeyd edək ki, ötən ay 51 aptekdə yoxlama aparılıb. Bu barədə Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən məlumat verilib. Bakı şəhəri üzrə 30, digər rayonlar üzrə 21 aptek olmaqla, ümumilikdə 51 aptekdə planlı və plandan kənar yoxlamalar həyata keçirilib. İnzibati Xətalar Məcəlləsinin müxtəlif maddələri üzrə 15 protokol tərtib edilib.*

**Sücayət**




# İrəvan Bakı ilə razılığa gəlməyə çalışır

## Ancaq prosesə mane olan kənar qüvvələrin təsirləri var, Paşinyan da bunu göstərməyə çalışır

**Ermənistan Baş naziri Nikol Paşinyan Parlamentdə çıxışı zamanı Azərbaycanla aparılan danışıqlardan, müzakirə olunan məsələlərdən danışıb. Baş nazir bildirib ki, onun Parlamentə təqdim etdikləri Vaşinqtonda müzakirə olunur:**

”Masada Ermənistan-Azərbaycan sülh müqaviləsi ilə bağlı təkliflər sənədi var. Praqada keçirilən görüş formatında, Vaşinqtonda müzakirə olunan sənəd əsasında iyunun 1-də Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalansa, çox sevinərəm. Bunlar pis xəbər deyil, yaxşı xəbərlərdir. Danışıqlar davam etdiyi üçün deyəcəyim hər hansı müsbət və ya mənfi şərh onların gedişatına təsir edəcək. Mən Vaşinqtona səfər edən rəsmilərə dedim ki, danışıqları sərbəst aparsınlar”. Paşinyan əlavə edib ki, Ermənistanın qonşu ölkələrə nəinki ərazi iddiası yoxdur, hətta olmayacaq: ”Ermənistanın strateji təhlükəsizliyi yalnız hərtərəfli sülhlə təmin oluna bilər. Beynəlxalq vəziyyət regiona birbaşa təsir edir. Regionumuzda təhlükəsizlik və sabitlik sistemləri deformasiyaya uğrayıb. Bu o deməkdir ki, biz əlavə çağırışlarla üzləşmişik”. Baş nazir bildirib ki, ölkənin qarşısında duran əsas vəzifə deformasiya nəticəsində yaranan riskləri idarə etməkdir: ”Bunun üçün isə hərtərəfli sülhə ehtiyac var. Sülhə nail olmaq mümkündür. Amma buna görə siyasi iradə və məqsədə çatmaq üçün aydın parametrlər lazımdır”. Baş nazir vurğulayıb ki, İrəvan hakimiyyətinin sülhə nail olmaq üçün siyasi iradəsi var.

*Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, siyasi ekspert Samir Hümbətov ”Şərq”ə deyib ki, Prezident İlham Əliyevin Şuşadakı çıxışından sonra Ermənistan Baş naziri Nikol Paşinyanın belə açıqlama verməsi və Vaşinqton görüşləri deməyə əsas verir ki, İrəvan müəyyən məsələlərdə rəsmi Bakı ilə razılığa gəlməyə çalışır. Analitikin fikrincə, burada kənar qüvvələrin təsirləri var:* ”Paşinyan da bunu göstərməyə çalışır. Görünən odur ki, ortada müzakirə olunan bir sənəd var. Amma Paşinyanın nə deməsi və necə düşünməsi ilə iş bitmir. Burada qaranlıq məsələlər var. Məsələn, Paşinyan bildirir ki, nə Türkiyəyə, nə də Azərbaycana ərazi iddiası yoxdur. Bu, çox gözəl açıqlamadır. Ancaq baş nazir əvvəlki ifadələrində dəfələrlə bunun əksini söyləyib, ziddiyyətli açıqlamalar səsləndirib. Digər yandan, Ermənistan konstitusiyasında rəsmi olaraq Azərbaycana və Türkiyəyə ərazi iddiaları var. Üstəlik, Türkiyəyə qarşı uydurma ”soyqırım” iddiaları gündəmdədir. Paşinyan bunların hamısını aradan qaldırmalıdır ki, sözləri əhəmiyyət kəsb etsin. Maraqlı sual odur ki, Paşinyan bunu aradan qaldıra biləcəkmi? Konstitusiyadakı dəyişiklikləri həyata keçirə biləcəkmi? Baş nazirin açıqlaması göstərir ki, Vaşinqton görüşündən gözləntilər var. Amma sadaladığım reallıqları da gözardı etməməliyik”.

**İsmayıl Qocayev**

# Ermənistan sülhə gəlmək məcburiyyətindədir

## Çünki təkcə regionun vəziyyəti yox, həm də qlobal durum dəyişib

**”Biz Ermənistanın konstruktivliyinə ümid edirik. Əgər onlar konstruktiv olmasalar, biz diplomatik tədbirlərdən başqa hər hansı bir digər tədbirlərə əl atmağı planlaşdırmırıq. Bu qədəri bizə bəsdir. Buna görə sadəcə, sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar”.**



Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ”Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında deyib.

”Çünki bütün geosiyasi vəziyyət, - söhbət təkcə regiondan deyil, qlobal vəziyyətdən gedir, - dəyişib. Bizim orada öz yerimiz var. Bu yer çox sabitdir və getdikcə daha da möhkəmlənir. Lakin onlar üçün bu, böyük çağırış olacaqdır. Ümid edirəm ki, Vaşinqton danışıqları hətta nəticə verməsə belə, biz tərəqqinin əlamətlərini görə biləcəyik”, - dövlət başçısı bildirib.

**Prezidentin çıxışını müsbət dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli qeyd edib ki, biz müharibəni qalibiyyətlə başa vurduq və öz savaşımızla, öz sülhümüzü əldə etdik:** ”Ermənilərin isə sülhü qazanmaq üçün ikinci bir müharibəyə ehtiyacı yoxdur. Çünki onlar məğlub tərəfdir. Bu məğlubiyyət əsasında isə onların revanş və uğur əldə edəcəyini düşünmürəm. Amma sual yaranır ki, proseslər yalnız münaqişəli vəziyyətdə qala bilərmi? Azərbaycan-Ermənistan arasındakı müharibə bitməyibsə, Paşinyan və onun ətrafı Azərbaycanın bu qalibiyyətləri qarşısında nə qədər tab gətirə bilər?

Bir halda ki Azərbaycanla müharibədə Ermənistan ildə 3-4 milyard dollar pul itirir, 4 tərəfdən təzyiq altına düşür, qalib tərəf kimi diktə edən Bakıdır. Bu baxımdan regionda sülh məcburiyyətdən olmalıdır və Ermənistan buna məcburdur. Prezident İlham Əliyev də bunu bir daha gündəmə daşıyır.

Çünki təkcə regionun vəziyyəti yox, həm də qlobal durum dəyişib. Azərbaycan isə bu qlobal məkanda vacib oyunçudur. Bunun kontekstində Ermənistan regionda Azərbaycanın hegomonluğunu qəbul edib yaşaya bilər.

Əks halda Bakı Ermənistanın varlığını qəbul etməsə, arada hüquqi münasibət və sülh müqaviləsi olmasa, onların taleyini heç kim qorumayacaq”.

**Nihat Müzəffər**

# Kremlin yalanı ayaq tutdu, amma yerimədi

## Kustar üsulla hazırlanmış PUA ilə Putini vurmaq mümkünsə, vay Rusiyanın halına



**Kremlə Pilotsuz Uçan Aparatlarla hücum olub. Rusiya Prezidentinin Mətbuat xidmətindən bildirilib ki, silahlı qüvvələri PUA-lardan 2-sini məhv edib, itki yoxdur. Kremlin məlumatına görə, bu, 9 May - Qələbə Günü ərəfəsində terror aktı və Rusiya Prezidentinə sui-qəsd cəhdidir: ”Rusiya adekvat cavab vermək hüququna malikdir”.**

Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, Prezident Vladimir Putinin Kremlə dron hücumuna reaksiyası sakit və yığcam olub: ”Moskva bilir ki, Kiyev zərbələr üçün həm vasitələri, həm də hədəfləri Vaşinqtonun diktəsi ilə seçir. Moskva Rusiya xüsusi xidmət orqanlarının məlumatlarına əsaslanaraq Kiyevin Kremlə hücumda əli olduğunu hesab edir. Kiyevin Kremlə hücumunun arxasında Vaşinqton dayanır, ABŞ-nin Kremlə dronlarla hücum olunmasını rədd etmək cəhdləri gülüncdür. Kremlə hücumda iştirak edən Vaşinqtonun münaqişədə belə birbaşa iştirakın təhlükəsini anlaması vacibdir”. Peskov onu da bildirib ki, Kremlə hücumdan sonra Senat sarayının günbəzində iki mis təbəqə yanıb, onlar dərhal dəyişdiriləcək. Onun sözlərinə görə, Kreml Ukrayna PUA-larının Kremlə hücumuna cavab vermək üçün ”müxtəlif” variantları nəzərdən keçirir: ”Kremlə hücum edən PUA-ların dəqiq haradan buraxıldığı məlum deyil, bununla istintaq məşğul olacaq. Dronlarla insidentdən sonra Kremldə vəziyyət normaldır, hər kəs öz yerində işləyir. Bu insidentdən sonra Kremldə təhlükəsizlik sistemi daha da gücləndiriləcək. Dronların Kremlə hücumundan sonra xüsusi əməliyyatın məqsəd və vəzifələri dəyişmir”. Müharibənin Tədqiqi İnstitutunun (MTİ) analitikləri yeni hesabatında bildiriblər ki, Rusiya əhalinin cəbhəyə daha geniş səfərbər olmasına zəmin yaratmaq üçün mayın 3-də Kremlə PUA-dan hücumu özü də təşkil etmiş ola bilər. Onların sözlərinə görə, bir neçə əlamət zərbələrin daxili qüvvələr tərəfindən təşkil olunduğunu və həyata keçirildiyini göstərir. Ekspertlərin fikrincə, Rusiya hakimiyyəti son vaxtlar hava hücumundan müdafiə sistemlərini gücləndirir, o cümlədən Moskvada. Bu baxımdan, iki pilotsuz təyyarənin hava hücumundan müdafiə sisteminin bir neçə qatına nüfuz etməsi və birbaşa ”Kremlin ürəyi üzərində” partlaması və ya vurulması, eyni zamanda kameralara düşməsi ”çox çətin”dir. 2023-cü ilin yanvar ayından olan geolokasiya şəkilləri təsdiq edir ki, Rusiya hakimiyyəti şəhər ətrafında hava hücumundan müdafiə dairələri yaratmaq üçün Moskva yaxınlığında ”Pantsir” zenit-raket komplekslərini yerləşdirib. Kremlin hadisəyə dərhal, ardıcıl və koordinasiyalı reaksiyası hücumun daxildən hazırlandığına o qədər böyük ehtimaldır ki, onun qəbul edilən siyasi nəticələri sürprizi üstələyir”. Rusiyalı politoloq Sergey Markov deyib ki, bundan sonra hamı ”Putin üçün qəribə ov”un siyasi mənzərə olduğuna adət edəcək. Onun sözlərinə görə, Putinə ölümcül zərbə məhz o zamana hazırlanır: ”Hələ vaxtı deyil. Niyə Kremli məhz gecə saat 3-də dronla vurdular? Aydındır ki, Putin o zaman Kremldə olmur, elədirmi? Cavab: Ona görə ki, bu, ABŞ və İngiltərənin Kremlə qarşı taktikasıdır. Bu, min bir kiçik addım və ya qurbağanı yavaş-yavaş isinən suda qaynatmaq taktikasıdır. Bu taktikanı ABŞ ona görə seçir ki, onlar Putinin sərt addımlara daha sərt cavab verəcəyindən qorxurlar. Ona görə də kəskin addımlar yox, min kiçik addımlar atılır. Putinin nüvə silahı ilə zərbə endirməməsi üçün onu yavaş-yavaş, az qala hiss olunmayacaq şəkildə əzmək lazımdır”.

**Politoloq Natiq Miri ”Şərq”ə açıqlamasında deyib ki, bir hadisədə kiməsə ittiham etmək, suçlamaq üçün mütləq mənada konkret faktlara əsaslanmaq lazımdır. Ekspert vurğulayıb ki, Rusiya ətraflı araşdırmalar aparmadan ittihamedici açıqlamalar verməməliydi:** ”Ən azından PUA-ların qalıqları, istehsal edən dövlət və şirkət ciddi araşdırılmadan, konkret nəticələr əldə olunmadan bu cür açıqlamaların verilməsi şübhəyə əsaslar yaradır. PUA-lar zərərsizləşdiriləndən dərhal sonra birbaşa Ukrayna suçlanılır. İstənilən bir qurğunu izləmək Rusiya kimi bir dövlət üçün problem yaratmamalıdır. Moskvanın ittihamlarına ABŞ-dən gələn reaksiyalar da birmənalı deyil. Amerika rəsmiləri bildirirlər ki, bununla bağlı yetərli fakt yoxdur. Hansısa PUA ilə bir dövlət başçısını hədəf almaq ciddi səslənmir. Bu, dəqiq hazırlanmış sui-qəsd və ya terror hadisəsi sayıla bilməz və çox qeyri-ciddi səslənir. Əlbəttə, Kremli vurmaq olar, ancaq birbaşa Prezidentin hədəfdə olduğunu söyləmək mümkün deyil. Sui-qəsdin Prezidentə qarşı olduğunu iddia etmək Rusiyaya əsas yaradır ki, qarşı ölkənin dövlət başçısına adekvat cavab versin. Yəni Rusiyaya bu yöndə haqq qazandırır və Ukraynaya qarşı təhlükəli gedişlərin planlaşdırılmasına imkan yaradır. O baxımdan yalanı özü üçün siyasi prioritet sayan bir dövlət rəsmisinin açıqlamaları ciddi şübhələr doğurur”.

**Analitik qeyd edib ki, PUA zərbələrindən danışılır, amma heç bir ziyan, zərərdən söhbət getmir:** ”Digər yandan, kustar üsulla hazırlanmış iki PUA ilə Kremli hədəf almaq, Prezidenti vurmaq mümkündürsə, bu, Rusiyanın hərbi cəhətdən nə qədər zəif olduğunu da göstərir. S 400-ləri öyünən Rusiya necə olur ki, kiçik PUA-ları öz hava məkanında zərərsizləşdirməkdə çətinlik çəkir?! Şübhəli məqamlar çoxdur. Rusiya eyni şeyi adekvat olaraq çox rahatlıqla Ukrayna Prezident Aparatının binasında həyata keçirə bilər. Kiyev müharibənin əsas mərkəzi kimi intensiv olaraq dünya liderlərini qonaq qəbul edir. Zelenski həmin adamlarla görüşür. İndi Ukrayna rəhbərliyi hansı səbəblərə görə həm özünün, həm də xarici ölkə rəhbərlərinin həyatını təhlükəyə atsın? Bu, məntiqə sığmır”.

**İsmayıl Qocayev**



# Deputat apteklərdən narazıdır

## “Ölkəni keyfiyyətsiz məhsullar poliqonuna çevirmək olmaz”

**“Hansısa qida əlavəsini alırsan, üzərində yazılır ki, xərçəngdən prostatın müalicəsinə qədər kömək edir”. Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deputat Rüfət Quliyev bildirib. Deputat deyib ki, Azərbaycanı keyfiyyətsiz məhsullar poliqonuna çevirmək olmaz: ”İnsanların səhhəti üçün zərərli olan xaricdən gətirilən, o cümlədən daxildə işbaz sahibkarların istehsal etdiyi məhsulların nə satışına, nə də istehsalına icazə vermək olar.**

> “Axı necə ola bilər ki, adi dərman belə olmayan məhsul bu qədər xəstəliyin müalicəsinə kömək etsin?”

Bu, insanlar üçün təhlükədir. Tutaq ki, aptekdən, hansısa ticarət şəbəkəsindən hansısa qida əlavəsini, yaxud yağı alırsan. O məhsulun üzərində elə şeylər yazılır ki, az qala xərçəngdən tutmuş prostatın müalicəsinə qədər hər şeyə kömək edir. Axı necə ola bilər ki, adi dərman belə olmayan məhsul bu qədər xəstəliyin müalicəsinə kömək etsin? Bu, insanları aldatmaq deməkdir. Düzdür, yoxlamalarla bağlı ehtiyatlı olmaq lazımdır. Lakin insanların səhhətinə təsir edən belə hallarla bağlı həssas olmalıyıq”.

**“Qanun deyir ki, 12 metrə qədər olan tikintilərdə heç bir sual olmamalıdır”**

Deputat Rüfət Quliyev deyib ki, əsasən Bakı rayonlarında və regionlarda da müşahidə edilən bir hal var: ”Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tikinti üçün icazəni verir, elə ki 3 daş qoyulur, bir də görürsən tökülüşdülər, hərə bir qara qovluqla gəlir, deyir ki, bunun sənədini göstər. Bu, narahatlıq, narazılıq yaradır. Sənəd göstərilir, deyirlər ki, yox e, filan yerdən də icazə al. Qanun deyir ki, 12 metrə qədər olan tikintilərdə heç bir sual olmamalıdır. Aidiyyəti olmayan, məntiqsiz suallar verirlər. İcazəni bir orqan verir, icazəsi olmasa, Azərbaycanın heç ucqar kəndində daşı daş üstünə qoymaq olmaz. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sənədləri təsdiq edibsə, digər orqanlar da kömək etsinlər, insanlar rahat tikinti aparsınlar. Amma yenə də gəlirlər, bu onun boynuna atır, o bunun boynuna atır. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin bütün problemləri öz üzərinə götürməsi üçün səlahiyyətlər Komitədə olmalıdır”.

**“Yoxlamalar bəzi müəssisələrdə illərlə davam edir”**

Deputat Məşhur Məmmədov sahibkarlıq sahəsində yoxlamalarının uzun aparılması ilə bağlı iradların olduğunu söyləyib: ”Yoxlamalar 30 gün müddətinə açılır, amma bu yoxlamalar bəzi müəssisələrdə illərlə davam edir. İllərlə yoxlamaların aparılması müəssisələrin fəaliyyətində problemlər yaradır. Onların hesabları bağlanır, hətta onların partnyorları ilə problemlər yaradır. Əgər orada 1 yoxlama deyil, 3 yoxlama getməlidirsə, onların 3-ü də aparılmalıdır”.

**“Yoxlamaların uzanmasının səbəbi sahibkarların elektron bazalarının az olmasıdır”**

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili isə deyib ki, sahibkarlıq sahəsində yoxlamaların uzun müddət aparılmasının səbəblərindən biri sahibkarların elektron bazalarının az olmasıdır: ”Bu da müəyyən problemlərə səbəb olur. Belə ki, sahibkarların 65 faizində kompüter varsa, 35 faizində yoxdur. Proseslərin elektronlaşdırılmaması mühasibatlıq və digər zəruri işlərin kağız üzərində aparılması yoxlamaların uzun çəkməsinə səbəb olur”.

**İsmayıl**

# Gələcək danışıqlara zəmin hazırlayırlar

## İki əsgərimizin əvəzinə, ermənilər də Bakıda həbsdə olan diversantlarını istəyəcək




**Ermənistanın Baş prokuroru Anna Vardapetyan əsir götürülmüş Azərbaycan hərbçilərindən danışıb. O, ekstradisiyanın planlaşdırılmadığını bildirib: ”Məhkəməyə qədər Ermənistana daxil olmuş 2 Azərbaycan əsgərinin ekstradisiyasına icazə verilmir və qanunla nəzərdə tutulmayıb. Gələcəkdə belə bir ehtimala gəlincə, məsələ onun səlahiyyətində deyil”.**

Xatırladaq ki, Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, Naxçıvanda xidmətdə olan 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu itkin düşüblər. Onların yolu azaraq Ermənistan ərazisinə keçdiyi məlum olub. Hər iki hərbçi Ermənistan tərəfindən əsir götürülüb. Sosial şəbəkələrdə Hüseynin işgəncələrə məruz qalmasını əks etdirən görüntülər paylaşılıb. Daha sonra ”qətl törətməkdə və diversiya” fəaliyyətində ittiham olunan əsgərlərimizə qarşı saxta cinayət işi açılıb.

**Azərbaycan Demokratiya və İnsan Hüquqları İnstitutunun rəhbəri Əhməd Şahidov ”Şərq”ə açıqlamasında deyib ki, Ermənistan tərəfinin iki əsir əsgərimizlə bağlı məsələni qanunsuz məhkəmə müstəvisinə çıxarması rəsmi İrəvanın fərqli hədəflərinin olduğunu göstərir. Hüquq müdafiəçisi bildirib ki, Ermənistan hökuməti Azərbaycan əsgərlərini saxta ittihamlarla həbs etməklə bir sıra məqsədlər güdür:** ”İrəvan iki əsgərimizi ”cinayətkar” kimi həbs etməklə və bir müddət saxlamaqla onları Bakıda erməni diversantlarla dəyişmək niyyətindədir. Yəni iki əsir əsgərimizi həmin erməni diversantlarla eyni müstəviyə çıxarmağa çalışırlar ki, gələcəkdə Bakı ilə danışıqlara zəmin hazırlasınlar. Bu baxımdan iki əsgərimizin hava şəraitindən dolayı yolu azaraq Ermənistana keçməsi İrəvan üçün ”göydəndüşmə şans” kimi qiymətləndirilir. Onlar bu hadisədən maksimum istifadə etməyə çalışırlar. Biz iki əsgərimizin geri verilməsini tələb etdikdə, ermənilər də Bakıda həbsdə olan diversantlarını istəyəcək. Ola bilər ki, danışıqlar çərçivəsində iki əsgərimizin geri alınması üçün iki erməni diversantın Ermənistana verilməsi mümkün olsun. Əvvəllər də belə təcrübə olub. Beynəlxalq təşkilatlar vasitəsilə İrəvana təzyiq göstərilməsi də mümkündür. Ancaq təəssüflər ki, beynəlxalq qurumların belə məsələdə təsir mexanizmi mövcud deyil. 6 il erməni girovluğunda saxlanılan Dilqəm Əsgərov və Şahbaz Quliyev timsalında bunu gördük. Bütün beynəlxalq tribunalarda bu məsələni illər boyu gündəmə gətirsək də, Ermənistan girovlarımızı geri vermədi. Döyüş meydanında torpaqlarımızı azad etdikdən sonra iki şəxs girovluqdan xilas oldu. Onlar Azərbaycan tərəfinin əsir aldığı ermənilərlə dəyişdirildi. Yenə də əsir və girovların dəyişdirilməsi prosesi rol oynadı. Rusiya-Ukrayna savaşında da bu təcrübə var. Hesab edirəm ki, indiki məsələnin də həlli yolu odur. Burada heç bir siyasi danışıqlar nəticə verməyəcək. Ermənistana nə qədər çağırışlar edilsə də, iki əsgərimizi qarşılıq almadan Azərbaycana təhvil verməyəcək”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Laçın, Qubadlı və Zəngilan rayonlarına səfər edib.**

Dövlətimizin başçısı Laçın rayonunda Güləbird kənd yaşayış məntəqəsinin, Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin, inzibati binanın, 600 şagird yerlik tam orta məktəbin, 91 çarpayılıq Mərkəzi Xəstəxananın, Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin təməllərini qoyub.

O, Zəngilan şəhərində Konqres Mərkəzinin tikintisi ilə tanış olub, inzibati binanın təməlini qoyub, ”Azərenerji” ASC-nin ”Sarıqışlaq” Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub, hotel kompleksinin, 91 çarpayılıq Zəngilan Rayon Mərkəzi Xəstəxanasının və Cahangirbəyli kəndinin təməlini qoyub.



# "Həyatda hər birimizin bir arzusu var"

## Sabiq deputat: “Xankəndidə doğulub, böyüyən biri olaraq ölkə başçısını o torpaqlarda qarşılayacağım günü gözləyəcəm”

**Ölkə başçısının səfərlərini yüksək qiymətləndirdiyini bildirən sabiq millət vəkili Flora Qasımova ”Şərq”ə bildirib ki, adam öz zəhmətinin bəhrəsini görəndə daha da sevinir:** ”Azərbaycan xalqının illərdir, gözlədiyi torpaqları azad etdikdən sonra, orda görülən işlərlə necə maraqlanmamaq olar? Bizə qarşı olan bütün dünya güclərinə üstün gələrək torpaqlarımızı azad etmək çox qürurverici hissdir. Hələ görün köçkünləri öz torpaqlarına qaytaranda insanlar necə sevinəcəklər?!

Bu mənada Prezidentin işğaldan azad edilmiş torpaqların abadlaşdırılmasına şəxsən nəzarət etməsi çox sevindirici və vacibdir. Əlbəttə işlərin necə getdiyinə şəxsən baxmaq lazımdır. Çünki yerində görəndən sonra daha tez qərar vermək olur. Bəlkə elə hadisə var ki, heç cənab Prezidentə çatdırılmır”.

*F.Qasımova əlavə edib ki, Xankəndidə bayrağımızın dalğalanacağı günü səbirsizliklə gözləyir:* ”İnşallah, Cənab Prezident Xankəndidə də yeni tikililərin təməlini qoyar. Mən Xankəndidə doğulub, böyüyən biri olaraq ölkə başçısını o torpaqlarda qarşılayacağım günü gözləyəcəm.

Həyatda hər birimizin bir arzusu var. İşğalda olan torpaqlarımızın azad edilməsi də İlham Əliyevin ən ümdə arzusu idi.

O, bu böyük yükün və arzunun altından inamla çıxdı. İndi də öz sənət əsərinin yenidən çiçəklənməsinə fərəh hissi ilə nəzarət edir”.

**Nihat Müzəffər**

# "Bir həftəyə öldürən" xəstəlik...

## Yayılan məlumatlar reallığı əks etdirmir



**Son illər xarici ölkələrdə yayılan yoluxucu xəstəliklərin bizim üçün də ciddi təhlükələr yaratdığı məlumdur. Yayılan xəstəliklər əsasən qrip mənşəli xəstəliklərdir ki, bundan da insanlar ciddi narahatlıq keçirir.**

”Quş qripi”, ”Donuz qripi”, COVİD-19, ”Meymun çiçəyi” kimi viruslar Azərbaycandan da yan keçməyib. Bildirək ki, dünyada yayılması ehtimal edilən virus mənşəli xəstəliklər barədə əvvəlcə proqnozlar verilir, sonra isə bu xəstəliklərin yayıldığının şahidi oluruq. Xarici media yeni yolxucu xəstəliyin yayılacağı barədə məlumat yayıb. ”Sportkp.ru”nun yaydığı məlumata görə, 2023-cü ildə Avropada yeni təhlükəli xəstəlik yaranacaq və ”xəstə insanlar bir həftədən çox yaşaya bilməyəcəklər”. Sözügedən xəstəliklə bağlı proqnozda deyilir ki, 2023-cü ildə Avropada Afrikadan gətiriləcək yeni təhlükəli xəstəlik yaranacaq. Orada bu xəstəliyə ”kunu” deyirlər, onun törədicisi ”qan qurdları”dır. Proqnozlara görə, xəstə bir həftədən çox yaşaya bilməyəcək. Onların daxili orqanları parçalanacaq, bu, yüksək temperaturla müşayiət olunacaq. Məlumatda qeyd edilir ki, bu xəstəliyin proqnozu ”xurma yarpağı”ndakı yazı vasitəsilə verilib.

### Adil Qeybulla: "Elmi əsası olmayan informasiyalara ciddi yanaşmaq olmaz"

Avropadan yayılan yeni qorxulu xəstəlik Azərbaycan üçün nə qədər təhlükəli ola bilər? İnfeksionist-hepatoloq Mərdan Əliyev ”Yeni Müsavat”a bildirib ki, yayılan məlumatdan xəbərdardır. Həkim qeyd etdi ki, məlumatı mətbuatdan oxuyub: ”Bu xəbəri oxuyan kimi araşdırmağa başladım. Ümumdünya Səhiyyə Təşkilatının saytında bu barədə məlumat yoxdur. Proqnozun kim tərəfindən verildiyi məlum deyil. Belə bir məlumatın hansı məqsədlə yayıldığını deyə bilmərəm. Bu, sadəcə, şayiədir. Elmi əsası olmadığı üçün bu barədə müzakirə aparmaq doğru deyil. Narahatlığa əsas yoxdur”.

**Yayılan informasiyaların proqnoz xarakterli olduğunu vurğulayan professor Adil Qeybulla isə ”Şərq”ə açıqlamasında bu iddiaların elm tərəfindən təsdiq edilmədiyini deyib:** ”Düzdür, mutasiya edən virusların, o cümlədən də qripin pandemiyası həmişə gözlənilir, amma bunun tarixini konkret olaraq deyə bilmərik. Elmi proqnozlar birbaşa deyir ki, istənilən bir mutasiya etmiş virus insanda yayıla, zamanında pandemiya törədə bilər. Xüsusilə də yoluxucu viruslar, onlar nəfəs yolları ilə yoluxur və sair. Bu baxımdan da, hesab edirəm ki, sizin qeyd etdiyiniz proqnoza şərh vermək düzgün olmazdı. Ona görə ki, Nostradamusun proqnozu, eləcə də ”xurma yarpağı”nda yazılan bu proqnoz əslində elmi proqnoz deyil. Əslində bu cür informasiyalar dünyanın xəstəliklərə nəzarət və profilaktika mərkəzləri, mötəbər elmi qurumlar tərəfindən qəbul edilmir” . Professorun sözlərinə görə, bu cür proqnozların verdildiyi dövrün və onun müəllifinin də gerçəkliyi şübhə doğurur: ”Bəlkə də heç bu xəstəliyi proqnoz edən olmayıb, sadəcə bunu dövriyəyə gətirib yayırlar. Zənnimcə, elmi əsası olmayan informasiyalara ciddi yanaşmaq olmaz”.

**Şəymən Bayramova**



**”Qubadlı rayonuna səfər edən Prezident İlham Əliyev erməni vandallarının dağıdıb taladığı məşhur Xanlıq kəndinin təməlini yenidən qoydu. Təməlqoyma mərasiminin kadrlarını izləyərkən qeyri-adi hisslər yaşadım. Sevinc və nisgil hissləri bir-birinə qarışdı. Çünki Xanlıq mənim doğma kəndimdir.**

Mən bu kənddə anadan olmuşam, orada böyümüşəm. Birinci Qarabağ müharibəsi zamanı həm Xanlıq uğrunda, həm də digər ərazilərimiz uğrunda döyüşmüşəm, yaralanmışam”. **Bu sözləri Milli**

# Doğma kəndimiz

## Əlisahib Hüseynov: “Xanlıq kəndi də fədakar insanlarımızın əməyi sayəsində tezliklə bərpa olunacaq”

**Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri bildirib ki, 30 ildir ki, Xanlıqdan uzaq düşüb:** ”Bir çox soydaşlarımız kimi biz də məcburi köçkün həyatının bütün əziyyətlərinə qatlaşmışıq. Şükürlər olsun ki, indi artıq məcburi köçkün sayılmırıq. 44 günlük İkinci Qarabağ savaşında Ali Baş Komandanımız İlham Əliyevin sərkərdəliyi ilə qəhrəman əsgər və zabitlərimiz, qazilərimiz Xanlıq kəndini də düşmən tapdağından azad etdilər. Məcburi köçkünlüyün ağır yükü üzərimizdən götürüldü. Buna görə əziz şəhidlərimizin ruhu qarşısında da baş əyirik. İndi Qarabağ və Şərqi Zəngəzurun bütün əraziləri kimi Qubadlı rayonu da yenidən qurulur, bərpa olunur. Bu gün isə Qubadlının ən böyük kəndlərindən biri sayılan, strateji nöqtədə yerləşən Xanlıq kəndinin də təməlqoyma mərasiminə şahidlik etdik. Qarabağ və Şərqi Zəngəzur hazırda nəhəng bir tikinti meydanını xatırladır. Orada gecəli-gündüzlü intensiv inşaat-bərpa işləri görülür. Mən oradakı qızğın iş mühitini öz gözlərimlə görmüşəm. Ağdamda, Zəngilanda, Şuşada olduğum səfərlər zamanı hər kəsin ”Böyük Qayıdış” naminə fədakarlıq göstərdiyini müşahidə etmişəm. Xanlıq kəndi də fədakar insanlarımızın əməyi sayəsində tezliklə bərpa olunacaq. Əminəm ki, ”Böyük Qayıdış” hədəfimizin bir mərhələsi kimi Xanlığa qayıdışımız da möhtəşəm olacaq. İnşallah gün gələr, birbaşa Xanlıqdan paylaşım edərik”.

**İsmayıl**

# Zelenski Avropa turuna çıxır

## Ukrayna xalqı həm də Avropanın savaşını aparır



**Ukrayna Prezidenti Volodimir Zelenski gələn həftə Berlinə səfər edəcək.**

Zelenskinin mayın 13-də Almaniyaya gedəcəyi gözlənilir. Onun təyyarəsi Berlin hava limanının hərbi hissəsinə enəcək. Almaniyanın güc strukturları artıq Ukrayna Prezidentinin gəlişi ilə bağlı hazırlıq görürlər. Qeyd edək ki, mayın 14-də Zelenski Kansler Olaf Şolts tərəfindən qarşılanacaq. Bundan sonra danışıqlar və mətbuat konfransı baş tutacaq. Günorta saat 12 radələrində onun Almaniya Prezidenti Frank-Valter Ştaynmayerlə söhbəti planlaşdırılır. Bundan sonra Ukrayna Prezidentinin helikopterlə Axenə uçuşu nəzərdə tutulur. Orada Zelenskiyə Böyük Karl mükafatı veriləcək. Elə həmin gün Volodimir Zelenski xüsusi təyyarə ilə Ukraynaya qayıdacaq. Xatırladaq ki, Zelenski mayın 3-də Finlandiyaya gözlənilməz səfər edib. O, bir sıra ikitərəfli görüşlərdə iştirak edib. Səfərin gözlənilən olduğunu deyən AĞ Partiya sözçüsü, siyasi şərhçi Cavanşir Abbaslı ”Şərq”ə vurğulayıb ki, Zelenskinin səfər etdiyi ölkələrə diqqət yetirmək lazımdır: ”Müharibə yeni başlayanda Zelenski tez-tez Avropa ölkələrinin biganəliklərini dilə gətirirdi. Həmçinin yaxın zamanda Ukraynanın əks-hücum əməliyyatlarına başlayacağı ilə bağlı da məlumatlar yayılıb. Bu isə gözləniləndir. Çünki Ukrayna çətin qış dönəmini geridə qoydu. Hətta Zelenski əks-hücum əməliyyatlarına Krımdan başlayacağını bildirmişdi. Bütün bunların fonunda isə onun səfər etdiyi ölkələrə diqqət yetirmək lazımdır.

Finlandiya günlər öncə NATO-ya üzv qəbul edildi. Ona görə də Zelenskinin Avropa səfərini Finlandiyadan başlaması təsadüfi deyil. Digər tərəfdən, Ukraynaya Avropadan gələn dəstək də, müəmmalı mövqe sərgiləyən ölkələr sırasında birinci yerdə Almaniya gəlir. Hətta Almaniya silah verilməsində ya zamanı uzadırdı, ya da dünyanın gözlədiyi silahları Ukraynaya verməkdən boyun qaçırırdı. Hollandiya da Ukraynaya dəstək verən, amma yetərli olmayan ölkələrdəndir.

Yəni biz ABŞ, Böyük Britaniya və s. ölkələrin verdiyi dəstək qədər Almaniya və Hollandiyanın yardımını görmürük. Ümumiyyətlə, ola bilər ki, Zelenski Almaniyanın ardından digər Avropa ölkələrinə də səfərlər etsin. Çox güman ki, Zelenski bu səfərlərlə həmin ölkələrin biganəliyini rəhbərliyin diqqətinə çatdırır və əks-hücum əməliyyatlarına başlayacağı bir dönəmdə dəstək istəyir. Hətta ola bilsin, Zelenski onlara bir minnət də qoyur ki, ”biz təkcə Ukrayna üçün yox, bütün Avropa üçün döyüşürük”. Bu isə həqiqətən belədir. Biz hər zaman demişik ki, savaş təkcə Ukrayna və Rusiya arasında yox, Rusiya və Qərbin savaşıdır”.

Analitik qeyd edib ki, əgər bu müharibədə Kreml qalib gələrsə, bütün Avropada Rusiya rüzgarı əsəcək: ”Yəni dünyanın iki super gücündən birinin faktiki olaraq üçüncü dünya müharibəsinə başlaması, ABŞ və Avropa üçün böyük təhlükə yaranacaq.

Bu mənada da iki slavyan xalqını vuruşduran Qərb və Avropa ən azından Ukraynaya dəstək verməlidir ki, müharibədən uğurla çıxsın. Düzdür, tam uğurun əldə edilməsini gözləmirəm. Çünki Rusiya kimi bir ”ayını” dünya xəritəsindən silmək mümkün deyil. Ancaq onu dünya siyasətində zəiflətmək olar.

Ona görə də təhlükəli bir durum yaranıb və Zelenski bu vəziyyətin fərqindədir. Digər xəbərlər yayılıb ki, Putin 9 mayda parad keçirməyi planlaşdırır. Bu paradda Ukraynanın işğal edilmiş bəzi ərazilərinin adının açıqlanması bu adların içərisində Baxmutun da olması ehtimalı var. Digər tərəfdən, Zelenskiyə Almaniyada mükafatın verilməsi normal bir haldır.

Çünki Avropanın savaşını aparan Ukrayna xalqıdır. Onların başında isə Zelenski dayanır. Yəni bu mükafat ruh yüksəkliyi vermək üçündür və bunu təsadüfi saymıram”.

**Nihat Müzəffər**

# İsmayıl Şıxlı AYB-dən niyə istefa verib?

## Elçin Şıxlı 1987-ci ildə olan söhbətin açılmasında heç bir məna görmür



**Şair Vəli Xramçaylı ötən günlərdə ”Şərq”ə müsahibə verib. O, müsahibədə Xalq yazıçısı İsmayıl Şıxlının AYB sədrliyindən istefası ilə bağlı mübhəm iddialar səsləndirib: ”Anarla Əkrəm illərlə dost oldular. Ad almaq üçün İsmayıl Şıxlının üstünə hücuma keçdilər.**

Əkrəm onu etiraf edir. Mən onun şahidiyəm. İsmayıl Şıxlını bezdirdilər, o da şəxsiyyətinə hörmət edən adam idi. Dedi, alın, bu da sizin AYB. Biri o vaxt mənə replika atdı ki, AYB -ni niyə buraxdınız? Cavabım belə oldu: - Biz kreslonu vermişik, ədəbiyyatı yox. Ədəbiyyatı yenə də biz yaradırıq. İndi Əkrəmlə Anarın bir-birinə qarşı yazdıqlarını oxuyanda ”ət tökürəm”. Onlara deməyə söz tapmıram”.

İddiaların həqiqətə uyğun olub-olmadığını öyrənmək üçün İsmayıl Şıxlının oğlu, Azərbaycan Jurnalistlər Birliyinin sədri, ”Ayna-Zerkalo” qəzetlərinin baş redaktoru Elçin Şıxlı ilə əlaqə saxladıq.

O bildirdi ki, 1987-ci ildə olan söhbətin açılmasında heç bir məna görmür: ”Vəli deyib, gərək o da cavablasın. Mən lazım bilsəydim, məsələ ilə bağlı özüm danışardım. Amma lazım bilmirəm. Vəli bu sözü deyib, inanıb-inanmamaq isə sizə qalıb”.

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği

**Azərbaycançılıq ideyası Azərbaycanın müstəqilliyini qorumaq, demokratik inkişafı təmin etməklə bərabər, davakar millətçilik və şovinizmə qarşı təşəkkül tapmış ideologiyadır. Azərbaycançılıq ideyasının kökündə millətçilik yox, vətəndaşlıq dəyəri dayanıb. Bu ideyanın məqsədi çoxmillətli Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır.**

Çoxmillətli Azərbaycan xalqını birləşdirən azərbaycançılıq ideyası müstəqilliyin qorunmasına, demokratik inkişafa və hüquqi, sosial dövlətin qurulmasına xidmət edir. Azərbaycançılıq ideologiyası Azərbaycan cəmiyyətində milli birliyi və ümumxalq münasibətlərini qorumaq, millətin və onun dövlətinin mövqeyini izah, təsdiq və inkişaf etdirmək məqsədini daşıyır. Azərbaycançılıq Azərbaycanın ərazisində yaşayan xalqın həmrəyliyi ilə məhdudlaşmır. Azərbaycandan kənarda yaşayan soydaşlarımızla yanaşı, milliyyətindən asılı olmayaraq Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi, demokratik dövlət kimi inkişafını arzulayan hər bir kəs azərbaycançılıq ideologiyasının daşıyıcısıdır. Beləliklə, azərbaycançılıq milli dövlət ideologiyası kimi Konstitusiya əsaslarına söykənən, insanlarda vətəndaşlıq, vətənpərvərlik, loyallıq və vətəndaş məsuliyyətini formalaşdıran, Azərbaycanın müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən dəyərlər sistemidir.

Azərbaycançılığın - bütün dünya azərbaycanlılarını birləşdirən bir məfkurə, bir siyasi ideologiya kimi Azərbaycan dövlətinin əsas idea və idarəçilik prinsipinə çevrilməsi məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. O, azərbaycançılığı dövlətçiliyə tətbiq etməklə bu məfkurəyə əsaslanan bir müasir dövlət yaratdı, bununla da yeni dövlətçilik modelinin əsasını qoydu. Heydər Əliyevin dövründə Azərbaycan vətəndaşlarını vahid amal, ideya və müqəddəs məqsəd ətrafında birləşdirəcək milli ideologiyanın yaradılması dövlət idarəçiliyi siyasətinin prioritetinə çevrilib.

**Milli Məclisin deputatı, professor Kamilə Əliyevanın "Şərq"ə açıqlamasına görə, Heydər Əliyev böyük azərbaycançılıq məfkurəsinin əsasını qoyub.**

Azərbaycançılıq, soy-kökümüz, milli-mənəvi dəyərlərimizə bağlılıq, xalqa olan sonsuz məhəbbət hissləri həmişə Ulu Öndərin ürəyində olub: "Heydər Əliyev bütün həyatını öz xalqının rifahına, azad yaşamasına həsr edib. Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər təyin edilənə qədər Azərbaycan Respublikası Sovet İttifaqının respublikaları arasında bütün sahələrdə axırıncı yerlərdə idi. 1970-1980-ci illərin əvvəllərində Ulu Öndər Heydər Əliyevin apardığı iqtisadi və siyasi islahatlar nəticəsində Azərbaycan bütün iqtisadi göstəricilərə və insanların



# Azərbaycançılıq məfkurəsi onun əsəridir

## Ulu Öndərin Azərbaycan dövləti və xalqı qarşısında çox böyük tarixi xidmətləri olub

yaşayış səviyyəsinə görə ön sıralara qalxdı. O zamandan Heydər Əliyev Azərbaycan xalqının böyük sevgisini və rəğbətini qazanıb.

Onu da qeyd etmək lazımdır ki, ana dilimiz olan Azərbaycan dilinin bu günə Azərbaycançılıq məfkurəsi onun əsəridir gədər saf, təmiz şəkildə gəlib çıxmasında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri olub. Azərbaycan dilini sevən, ona böyük hörmətlə yanaşan Ümummilli Lider hər zaman ana dilinə münasibəti ilə hər kəsə örnək olub.

Sovet İttifaqı zamanı Azərbaycana rəhbərlik edən Ulu Öndər bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxış etməklə dilimizə layiqli dəyəri göstərdi. Keçən əsrin 70-ci illərinin ortalarından başlayaraq SSRİ rəhbərliyi respublikalarda milli dillərin sıxışdırılması üçün bütün təzyiq vasitələrindən istifadə edirdi. Belə bir şəraitdə Azərbaycan dilini yaşatmaq, inkişaf etdirmək və ən əsası milli ideologiya səviyyəsinə çatdırmaq böyük cəsarət tələb edirdi.

Ulu Öndər 1978-ci ildə Azərbaycan xalqının qarşısında ən böyük tarixi xidmətlərindən birinə imza atdı. "Azərbaycan SSR-nin dövlət dili - Azərbaycan dilidir". Heydər Əliyevin bu təşəbbüsü 1978-ci il 21 aprel tarixində qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında öz əksini tapıb. Ulu Öndər Heydər Əliyev ziyalıları, yazıçı və şairləri Azərbaycan dilinin qorunması üçün onları səfərbər olmağa çağırırdı. Ulu Öndər Heydər Əliyev dilçi-alimlərimizə böyük qayğı göstərir, ədiblərimizə ana dilində yazılan kitabların saylarının çoxaldılmasını tövsiyə edirdi. Bütün bunlar Azərbaycan dilinin inkişafına və qorunub saxlanılmasına xidmət edirdi".

**Millət vəkilinin sözlərinə görə, rəsmi yığıncaqlarda, məclislərdə Azərbaycan dilində danışmaqdan çəkinməyən Ulu Öndər Heydər Əliyev praktik olaraq ana dilinin mövqeyinin yüksəlməsinə təsir göstərib və başqalarına nümunə olub.** Heydər Əliyevin həyata keçirdiyi dil siyasəti, dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub: "Müstəqilliyə gedən yolda ana dilimizin nüfuzunun güclənməsi Ulu Öndər Heydər Əliyevin vaxtı ilə yürütdüyü siyasətin nəticəsi idi.

90-cı illərin əvvəllərində Azərbaycan xalqının ağır günlərində Ulu Öndər Heydər Əliyev yenidən öz xalqının xilaskarına çevrilib.

Uca yaradan Azərbaycan dövlətini yıxılmaqdan, Azərbaycan xalqını məhv olmaqdan qorumaq üçün xalqımıza Heydər Əliyev kimi dahi bir şəxsiyyəti bəxş edib. Ulu Öndər Heydər Əliyev mənsub olduğu xalqa xidmət etmək missiyasına ömrünün sonuna kimi sadiq qalıb. Bu müqəddəs yolda Heydər Əliyev çox əziyyət çəkdi, hətta ölümlə üz-üzə qaldı, lakin heç vaxt öz amalından dönmədi. Çünki Heydər Əliyev öz xalqını çox sevirdi, hər bir azərbaycanlının xoşbəxt, firavan yaşamasını arzulayırdı. Ulu Öndər Heydər Əliyev öz xalqının tarixini, mədəniyyətini, adət-ənənələrini gözəl bilirdi və hər zaman bu kökdən gələn mirası qoruyub saxlayırdı. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi bütün hakimiyyəti dövründə respublikamızın inkişafı üçün gördüyü işlərin miqyası ölçüyəgəlməzdir.

Heydər Əliyev bu gün ən yüksək bir zirvədə, əlçatmaz bir yüksəklikdə dayanıb. Millətimiz, xalqımız, doğma Azərbaycanımız nə qədər yaşayırsa, Heydər Əliyev də qəlbimizdə, ürəyimizdə yaşayacaq".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Məşq zalları kabusa çevrildi

## Valideynlər övladlarını idman məşqlərinə göndərməklə bağlı narahatlıq keçirməyə başlayıblar

**Sumqayıtda azyaşlı oğlanın idman məktəbində aldığı xəsarət səbəbindən vəfat etməsi ölkənin əsas gündəm mövzularından birinə çevrilib. Məsələ ətrafında xeyli suallar var. Məlum videodan sonra övladını idmana qoyan valideynlər övladlarını idman məşqlərinə göndərməklə bağlı narahatlıq keçirməyə başlayıblar.**

Avropa oyunlarının mükafatçısı Mehman Xəlilovun etdiyi kobud sambo fəndi nəticəsində həyatını itirən 2016-cı il təvəllüdlü Fərid Bakarovun ölümü hər kəsi sarsıdıb. Mütəxəssislər isə hesab edir ki, valideynlər hansı idman növü olmasından asılı olmayaraq uşaqlarını əmanət etdikləri müəllimlər haqqında əvvəlcədən düzgün məlumat əldə etməlidirlər. Onun hansı həyat tərzi yaşaması haqqında müəyyən bilgilərə sahib olsalar yaxşı olar. Ən azı bir neçə məşq övladlarını həvalə edəcəkləri məşqçini yaxından izləməli və onun uşaqlarla necə ünsiyyət qurmasını dəyərləndirməsi faydalı olar. Qeyd edək ki, məlum hadisədən sonra məktəblərdəki idman zallarının bağlanması ilə bağlı da söz-söhbətlər yayılıb.

Elm və Təhsil Nazirliyindən bildirilib ki, ümumtəhsil məktəblərində idman zallarının uşaqların sağlamlığı naminə daha geniş istifadəsi davam etdiriləcək: "Ümumi təhsil müəssisələrinin idman zalları fiziki tərbiyə fənninin tədrisi, həmçinin dərsdən sonrakı vaxtlarda müxtəlif idman növləri üzrə şagirdlərin asudə vaxtlarının səmərəli təşkili, sağlamlığının qorunması və inkişaf etdirilməsi, bu sahədə kütləviliyin təmin olunması, uşaqların idmana olana marağının artırılması məqsədilə istifadə olunur. İdman zallarının bağlanılması bu sahədə səmərəliliyin aşağı düşməsinə, uşaqların idmandan kənarda qalmasına səbəb ola bilər. Bu baxımdan, məktəblərdə idman zallarının uşaqların sağlamlığı naminə daha geniş istifadəsi davam etdiriləcək".

Bildirilib ki, nazirlik sistemində 76 uşaq-gənclər idman-şahmat məktəbi fəaliyyət göstərir: "Onlardan 20-si Elm və Təhsil Nazirliyinin birbaşa, 56-sı regional təhsil idarələrinin tabeliyində işləyir. Bu müəssisələr idmanın müxtəlif növləri üzrə idman sahəsində kütləviliyin təmin edilməsi, təhsil müəssisələri arasında yarışların təşkili və keçirilməsi, müəssisələrə metodiki köməkliyin göstərilməsi istiqamətində fəaliyyət göstərir. 2022-2023-cü tədris ili üçün olan məlumata əsasən, qeyd olunan məktəblərdə idmanın 29 növündə 346 bölmə üzrə 2 452 məşqçi-müəllim və 4 271 qrup fəaliyyət göstərir, qruplarda 60 minə yaxın idmançı məşğul olur (idman növləri: şahmat, futbol, sərbəst güləş, voleybol, yunan-Roma güləşi, boks, stolüstü tennis, cüdo, basketbol, ağır atletika, sambo, badminton, atletika, taekvondo, akrobatika gimnastikası, həndbol, dama, karate, üzgüçülük, qılıncoynatma, idman gimnastikası, batut gimnastikası, kikboksinq, avarçəkmə, tamblinq, tennis, bədii gimnastika, veloidman, atıcılıq)".



***Psixoloq: "Uşaqlarla məşğul olan müəllim psixoloji cəhətdən sağlam olmalıdır. Evdə və çöldəki problemlərini sinif otaqlarına və ya məşq zallarına gətirməməlidir"***

Gənclər və idman naziri Fərid Qayıbov samboçu Mehman Xəlilovun bu yaxınlarda Sumqayıtda məşq zamanı tələbəsi olan 7 yaşlı Fərid Bakarova qarşı təhlükəli fənd işlədərək, onun ölümünə səbəb olmasına münasibət bildirib. O, hadisəyə görə təəssüf hissi keçirdiyini söyləyib: "Baş verən hadisə hamımızı şoka saldı. Vəfat edən uşağın ailəsinə başsağlığı verirəm. Hadisə ilə bağlı istintaq gedir, bunun nəticəsini gözləməliyik". Məşqçilərin lisenziyalaşdırılması ilə bağlı federasiyalarla daim görüşdüklərini xatırladan nazir əlavə edib ki, məşqçilərin lisenziyalaşdırılması və federasiyalar tərəfindən tanınması onlar üçün prioritetdir: "Təəssüf ki, bir çox hallarda məşqçilər federasiyaları tanımır. Bununla mübarizə aparırıq. İdmançılar, məşqçilər və hakimlərlə bağlı yeni sistemin istifadəyə verilməsi yönündə işlər aparılır. İnsanlar artıq bir yerdən daxil olaraq, həm idmançılar, həm məşqçilər, həm də hakimlər haqda məlumat əldə edə biləcəklər. Həmin sistemə məlumatları əlavə etmək bir az vaxt tələb edir".

**Əməkdar məşqçi Rafiq İsmayılov uşaqlara qarşı məşqçilərin azyaşlılarla necə davranmalı olduğunu açıqlayıb:** "Məşqçi idmanda uşaqlarla oynamalıdır. Onlar azyaşlıdır və çox şeyi anlamır. İdmanı onu məcbur edərək yox, sevdirərək keçmək lazımdır. Bizim yanımıza da uşaqlar gəlir. Onları qucaqlayırıq, başını tumarlayırıq, əzizləyirik. Bu, idman metodikasıdır. Məşqçi özünü də, idmanı da ona sevdirməlidir, onun həmyaşıdı kimi davranmalısan. Kobud davranmaqla heç nə olmayacaq. Bütün bu sadaladıqlarım idman metodikasında var. Məsələn, biz uşaqlara məşqlərdə müxtəlif oyunlar veririk ki, o, məşqi həmin oyunlarla sevsin. Hər kiçik uğuruna ona "afərin" deyirik, tərifləyirik. Uşaqlarla yeniyetmələrin məşqi eyni yerdə olmamalıdır, hətta paltardəyişmə otağı belə ayrı olmalıdır. Bu da tərbiyənin bir növüdür. Çox məşqçilər bunlara əməl etmir. Mənim yanımda azyaşlılar çoxdur, bütün günü burda atlanıb-düşürlər, əylənirlər. Bizi də öz əmisi, dayısı, qardaşı bilirlər. Belə də olmalıdır". R.İsmayılov düşünür ki, bu cür hadisələrin olmasının səbəbi həm də valideynlərin diqqətsizliyidir: "Çox pis hadisədir. Ürək ağrısı ilə qarşıladım. Məncə, ilk günah valideynlərdədir. Ona görə ki, onlar öz övladlarını maraqlanmamış, məşqçilik təcrübəsi olmayan, pedaqoji təhsili olmayan adamlara əmanət edirlər. Səbəb odur ki, onlar instaqramda, feysbukda, tik-tokda videolar paylaşan məşqçilərə aldanırlar. Düşünürlər ki, bu məşqçidən yaxdur, çox yaxşıdır və uşağımızı onun yanına göndərə bilərik. Ola bilər ki, bu məşqçi nə vaxtsa titullar qazanıb. Amma onun fəaliyyətinə qiymət vermək, izləmək, incələmək lazımdır. Belə məşqçilər videolar çəkib sosial şəbəkələrdə yerləşdirirlər və beləcə, valideynlərin marağına səbəb olurlar". Əməkdar məşqçi tələbələrinə qarşı şiddət göstərən məşqçilərin uşaqlıqda psixoloji travma yaşadıqlarını deyir: "Həmin psixoloji probemlər bu gün məşqlərə təsir edir. Azərbaycanda təcrübəli, sözünü demiş məşqçilər çoxdur. Sayılıb-seçilirlər. Düşüncəli valideynlər övladlarını gətirib həmin məşqçilərin yanına qoyurlar. Mehman Xəlilovun videosuna baxdım və fikrimcə, o, anlaqlı vəziyyətdə deyil. Çünki çox aqressiv görünür. Bu cür hallar mütləq araşdırılmalıdır".

Əməkdar məşqçi bu cür zalların istifadəsinin tənzimlənməli olduğunu da sözlərinə əlavə edib: "Keçmiş idmançılar hara müraciət edib məşq keçirsə, həmin klublar nəzarət etməlidir. Klub, ya federasiya maraqlanmalıdır ki, bu adam kimdir, necə məşq keçir, harada təhsil alıb, məşqçilik lisenziyası varmı... Mütəmadi olaraq bütün qurumlar Gənclər və İdman Nazirliyinə bu barədə məlumatlar verilməlidir. Bizim federasiya hazırda bunu edir və məşqçilər haqqında məlumatlar yerləşdirilir. Təkcə Boks Federasiyası yox, bütün qurumlar bunu etməlidir. Məşqçilərlə danışıqlar aparılmalıdır, işə götürəndə onlarla söhbətlər edilməlidir, testlər aparılmalıdır. Yəni belli olsun ki, doğrudan da bunun ağlı, təhsili imkan verirmi ki, o, məşqçilik etsin? Bunlar vacib amillərdir".

**Psixoloq Aytən Ələkbərova isə sosial şəbəkələrdə yayılan videonun insanlarda qorxu və təşviş yaratdığını deyib. Onun sözlərinə görə, məşqçinin düşüncəsiz və səriştəsiz hərəkətləri bir ailənin taleyinin sönməsinə səbəb olub. Bu hadisə nəticəsində insanlarda idman zallarına qarşı təşviş və qorxu, həmçinin etimadsızlıq duyğusu yaranıb:** "Düşünürəm ki, belə halların baş verməsinin qarşısını almaq üçün valideynlər övladlarını daha təcrübəli və səriştəli məşqçilərin yanına göndərməlidirlər. Məşqçilər idman psixologiyası ilə yanaşı, uşaq psixologiyasını və psixofizioloji dözüm səviyyəsini də bilməlidir. Əgər bunlara əməl olunsa, bu tipli hadisələrin qarşısı alınacaq". Psixoloqun fikrincə, uşaqlarla məşğul olan müəllim psixoloji cəhətdən sağlam olmalıdır. Evdə və çöldəki problemlərini sinif otaqlarına və ya məşq zallarına gətirməməlidir: "Çünki məşqdə olan uşağın qarşısına çıxan çətinlik, yoldaşları və müəllimlə, eləcə də ailədə olan qarşılıqlı münasibətdə də baş verə bilir. Müəllimin ciddi tələbkarlığı, müxtəlif tapşırıqların verilməsi uşaqda gərginlik və eyni zamanda sıxıntı yaradır. Beləliklə, uşaq düşdüyü yeni şəraitə çətin uyğunlaşır və öz yoldaşları ilə ünsiyyətə girməkdə çətinlik çəkir. Buna görə də təcrübəli müəllim, öz şagirdinin nöqsanlarını müntəzəm şəkildə izləyib, düzəltməyə səy göstərməlidir. Cüdo, sambo, güləş kimi döyüşlərdə uğur qazanmış müəllimlərimiz var ki, gəncləri yetişdirmək üçün hansısa aqressiyanı göstərirlər, amma o körpə uşağa göstərilən kimi yox. Əgər belə bir hərəkət edibsə, onun psixoloji durumu tamamilə sıfırdır. Onun qeyri-adekvat vəziyyətlərdə özünü idarə etməmə mexanizmi işə keçib. Uşaqlarla məşğul olan müəllim hamıya eyni tələbkarlıqla yanaşa da, onların arasında düzgün qarşılıqlı münasibətin formalaşması üçün ən gözəl şərait yaratmalıdır".

**Şəymən Bayramova**



## 17 mərtəbəli binanın 18-ci mərtəbəsi!

İcazə verilməyibsə, təbii ki, qanunsuz tikili sayılır

**"Çoxmərtəbəli binaların üzərində əlavə bir və ya iki mərtəbənin inşa olunması özbaşına həyata keçirilə bilməz".**

**Bunu "Şərq"ə əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı bildirib. Onun sözlərinə görə, bunun üçün müvafiq icra hakimiyyəti orqanları, Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin qərarı, təsdiqi zəruridir:**

"Sözügedən binaya əlavə bir mərtəbənin artırılması üçün qərarın, rəylərin mövcud olub-olmadığını bilmirik. İcazə verilməyibsə, təbii ki, qanunsuz tikili sayılır. Yəqin ki, müvafiq qurumlar məsələni araşdırıb qərar verəcəklər.

Həmin rəylər varsa və tikinti işləri qanunvericiliyin tələblərinə və standartlarına uyğun şəkildə həyata keçirilibsə, normal qəbul olunandır.

Çünki praktikada belə hallar baş verib. Burada məsələnin ən önəmli və əhəmiyyətli tərəfi binada yaşayış olduğu halda əlavə mərtəbənin tikilməsidir".

Mütəxəssisin qənaətincə, bu kimi işlər təhlükəsizlik qaydalarına ciddi şəkildə əməl olunmaqla, eyni zamanda təbii ki, bina sakinlərinin rahatlığına ziyan vurmadan, vətəndaşların hərəkətini məhdudlaşdırmadan görülməlidir".

*Qeyd edək ki, Xətai rayonu, Həsən Salmani küçəsi, 17 ünvanında "Sahil" MTK-nın tikdiyi 17 mərtəbəli binanın qanunsuz olaraq, 18-ci mərtəbəsi tikilib.*

**Sücayət Mehti**

## Elza hiddətləndi

"O insanları Allaha tapşırıram"



**Əməkdar artist Elza Seyidcahan şeirini tənqid edənlərdən danışıb.**

"Şərq" xəbər verir ki, bu barədə o, "Səhər mərkəzi" verilişində açıqlama verib: "O insanları Allaha tapşırıram. Şeir yazma deyəndə, elə bil söyləyirsən ki, övladını at. Məsələn, biz əlil övladını atan valideynlərə pis baxırıq. Valideynlər var ki, onları böyüdüb saxlayırlar. Biz də alqışlayırıq. Yaradıcılıq elə bir şeydir ki, demək olmaz, bunu etmə, sənə yaraşmır".

**Samirə**

# Düşmən hər yerə mina döşəyib

Xəbərdarlıqlara ciddi yanaşmaq lazımdır

**Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) mina təhlükəsi ilə bağlı əhaliyə xəbərdarlıq edib. Agentlikdən vurğulanıb ki, mina partlayışları ilə bağlı bəzi insanlarda yanlış fikirlər var: "Yanlış fikirlər var ki, minaya ayaq qoyduqda ayağı çəkməsən, partlamaz. Bu fikir doğru deyil, ayağı minaya basdınsa, partlayış baş verəcək.**



Mina saniyənin onda biri sürəti ilə partlayır. Eləcə də, sursat və minaları bir-birinə birləşdirən tələ məftilinə toxunduqda, partlayış baş verəcək".

Hərbi ekspert Ramil Məmmədli "Şərq"ə açıqlamasında deyib ki, 44 günlük müharibə bitdikdən sonra meydana çıxan mina problemindən qaçmaq, yayınmaq qeyri-mümkündür. Ekspertin sözlərinə görə, beynəlxalq təşkilatların Ermənistanın cinayətlərinə, mina terroruna ciddi yanaşmamaları, səhlənkarlığı sözügedən problemin həllinə imkan vermir: "İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi işi olduqca çətin və uzun bir prosesdir. Hətta deyərdim ki, İkinci Dünya müharibəsindən sonra hələ də Şərqi Avropa ölkələrində, Belarus, Ukrayna, Rusiya ərazisində minalar və partlamamış sursatlara rast gəlinir. Bu baxımdan hesab edirəm ki, Azərbaycan vətəndaşları öz doğma yurd-yuvalarına gedəndə olduqca ehtiyatlı olmalıdırlar. Maksimum şəkildə təhlükəli və riskli ərazilərə getməməlidirlər. Baxmayaraq ki, həmin ərazilər o insanlar üçün doğmadır, ancaq hər ehtimala qarşı məsələyə çox ciddi yanaşmaq lazımdır. Düşünürəm ki, ümumiyyətlə, minatəmizləmə işləri qismən də olsa bitməyənədək riskli ərazilərə səfər etməyə ehtiyac yoxdur. Bununla vətəndaşlar təkcə özlərini deyil, ətrafdakıları da təhlükədən qorumuş olarlar".

**İsmayıl**

# "Tənqidlərə heç vaxt fikir vermirəm"

Səmra Rəhimli: "Geyimimi bəyənməyənlərdən çox, bəyənənlər oldu"



**"Bu çıxışıma 1 ay müddətində hazırlaşmışam. Vaxtımız çox məhdud idi. Rəqqaslar Ukraynadan gəlmişdi. Onu da qeyd edim ki, onları bura gətirmək elə də asan olmadı. Səkkiz rəqqas və bir xoreoqraf idi. Onlar rəqsləri hazırlayıb Bakıya gəldilər. 3 günə öyrəndim. Anam İlahə xanımın sayəsində konsertim uğurla keçdi. Səhnə geyimlərim də, rəqqasların kostyumları da İlahə xanıma aiddir. Hamısı onun imzası ilə hazırlanıb".**

"Şərq" xəbər verir ki, bu sözləri KİV-lə görüşündə müğənni Səmra Rəhimli deyib. "Formula 1"də səhnə alan sənətçinin anası İlahə Bax isə qonorar barəsində verilən sualları belə cavablandırıb: "Bu konsertə dəvət alanda qonorar haqda düşünmədik. Bu işığı Səmrada görüblərsə, böyük məsuliyyətdir. Səmranın orada olması və səhnədə o cür yüksək perfomans sərgiləməsi təqdirəlayiq idi. Müəyyən səbəblərə görə, bir neçə dəfə dəyişməli olduq. Həm rəqqasların, həm də Səmranın libaslarının müəllifi özüməm. Libasların rəngləri "Formula"nın rənglərinə uyğun idi. Hətta işıq və dekorasiya rəngləri və s. yarışın ab-havasına uyğun qurulmuşdu".

S.Rəhimli səhnədə tənqidlərə necə reaksiya verməsindən, həyəcan keçirib-keçirmədiyindən və anasının ona dəstəyindən də danışıb: "Tənqidlərə heç vaxt fikir vermirəm. Geyimimi bəyənməyənlərdən çox, bəyənənlər oldu. Çalışdım ki, Bakıya gələn dünya ulduzlarından geri qalmayım. Heç vaxt səhnədə həyacanlanmamışam. Nə "Avroviziya"da, nə də "Formula 1"-in səhnəsində həyacan keçirdim. Səhnədə özümü öz qabımda hiss edirəm.

Buna özgüvən deyirəm. Anam mənim əvəzimə daha çox həyəcan keçirirdi. O mənə həmişə arxa-dayaqdır və hər zaman güc verib. Anama güvənirəm. Bəlkə də başqa bir insanla çalışsaydım, öz mənafeyini güdəcəkdi. Amma anam mənim daha uğurlu olmağım üçün əlindən gələni edir".

**Samirə Ərəblinskaya**



## Qarşılıqlı qərar veriblər

Rəqsanənin qızı boşanmalarının real səbəbini açıqladı

**Müğənni Rəqsanə İsmayılovanın qızı Aysun İsmayılova Eşqin Cəlilovla boşanması ilə bağlı açıqlama yayıb.**

"Şərq" xəbər verir ki, bu barədə o, instaqramda məlumat paylaşıb. Aysun bildirib ki, həyat yoldaşı ilə qarşılıqlı boşanma qərarı veriblər: "Eşqin Cəlilov ilə ailə münasibətimiz alınmadığından qarşılıqlı razılığımız əsasında nikahımıza xitam verdik. Hər ikimizə həyatımızda uğur arzu edirəm".

*Qeyd edək ki, cütlük ötən ilin avqustunda ailə qurmuşdu.*

**Samirə Ərəblinskaya**

## "Nar" "Baku Open 2023" Şahmat turnirinin rəsmi tərəfdaşıdır

**"Nar" ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə təşkil olunan "Baku Open 2023"beynəlxalq şahmat turnirinin rəsmikommunikasiyatərəfdaşıdır.**




Gənclər və İdman Nazirliyi və Azərbaycan Şahmat Federasiyasının birgə təşkil etdiyi və 600-dən çox şahmatçının iştirak etdiyi turnir 3-12 may tarixlərində Bakı Kristal zalında baş tutacaq.

Ümumi mükafat fondu 55 min ABŞ dolları olan turnir 3 kateqoriyadanibarət olan 9 tur üzrə isveçrə sistemi ilə oynanılacaq. Oyunları izləmək istəyən şahmat həvəskarları üçün giriş sərbəstdir.

"Baku Open 2023" Şahmat turnirinə dəstək "Nar"ın Korporativ Sosial Məsuliyyət (KSM) strategiyasının təhsil istiqaməti çərçivəsində həyata keçirilir. Mobil operator KSM strategiyası çərçivəsində bir sıra davamlı layihələr gerçəkləşdirir. "Nar"ın sosial layihələri haqqında ətraflı məlumatı buradan əldə edə bilərsiniz.

**Elanlar**

Qasımov Orxan Ehtiram oğluna məxsus YAP vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Mehrəliyev Rahim Rahib oğluna məxsus hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Əfəndiyev Əhməd Yasinəli oğluna məxsus Abşeron rayonu, Xırdalan şəhəri, H.Əliyev prospekti 11, bina 2, mənzil 4-ə aid evin kupçası itdiyi üçün etibarsız sayılır.

# Peyvəndlə bağlı deyilənlər, sadəcə, məlumatdır

Xərçəngdən sağalan və işinə qayıdan insanlar da çoxdur

**Britaniyalı alim Conatan Kvok hesab edir ki, xərçəngin müalicəsi 2030-cu ilə qədər tapılacaq.Tədqiqatçının sözlərinə görə, hazırda dünyada 10-a yaxın komanda bu təhlükəli xəstəliyə qarşı peyvənd üzərində çalışır və bu tədqiqat qruplarının problemin həllinə öz xüsusi, prinsipial olaraq fərqli yanaşmaları var.**

Britaniyalı alimin fikrincə, yeni preparatın təsir mexanizmi elə olmalıdır ki, dərman metastazların əmələ gəlməsini dayandırmalı, xəstənin öz immun sisteminin yaxşılaşdırılmasını stimullaşdırmalıdır.

Kvok bildirib ki, hazırda bütün tədqiqatçılar işin təxminən ortasındadırlar, lakin onlar 2030-cu ilə qədər prosesi müsbət nəticə ilə başa vuracaqlar.

Qeyd edək ki, yeni peyvəndin sınaqları artıq siçanlar üzərində sınaqdan keçirilir və bu il ərzində insanların yeni antixərçəng vasitəsinin effektivliyinin yoxlanılmasında iştiraka cəlb edilməsi planlaşdırılır.

Bəs 2030-cu ilə qədər təqdim edilməsi planlaşdırılan xərçəng peyvəndi nə qədər effektiv olacaq?

Qeyd edək ki, xərçəng xəstəliyinin artmasında ekoloji faktorlar, qeyri-sağlam qida, siqaret və alkoqolun təsiri var. Öncəki 30-40 illə müqayisədə oturaq həyatın artması, fiziki aktivliyin azalmasının fonunda xərçənglə bağlı rəqəmlərdə artım var.

**Terapevt-hepatoloq Sevindik Arazov "Şərq"ə açıqlamasında real perspektivdə bunun mümkün olmayacağını bildirib. Onun sözlərinə görə, xərçəngin peyvəndi ilə bağlı deyilənlər, sadəcə, məlumatdır. Hələ ki belə bir vaksin mövcud deyil:** "Bu yaxınlarda israilli bir həkimlə eyni tədbirdə idik və o artıq İsraildə Hepatit C xəstələrinin olmadığını dedi. Baxın, bu artıq real göstəricidir. Bütün dünyanın məqsədi 2030-cu ilə qədər hepatitli xəstələrin 80 faizinə düzgün diaqnoz qoyub, yarısından çoxunu müalicə etməkdir. İsraildə isə artıq Hepatit C daşıyıcı olan bir xəstə belə qalmayıb. Xərçəngin müalicəsi isə hələ ki laborator sınaq mərhələsində olduğu üçün "xərçəngin peyvəndi tapılıb" demək üçün çox tezdir. Vaksin hər 3 kliniki mərhələdən keçməlidir. Üstəlik, son 20 ildə xərçəngin peyvəndi ilə bağlı məlumatlar eşidirik. Odur ki, bir həkim olaraq xərçəngin peyvəndinin tapılacağına inanmıram. Peyvənd hansı orqanın xərçənginə təsir edəcək, bunun özü belə açıq sualdır. İnsanlar hansı xərçəngə görə vaksin olunacaq?! Süd vəzi, prostat, yoğun bağırsağın, yoxsa ağciyərin ... Xərçəngdən qorunmaq üçün bir insana 10 peyvənd vurulacaq? Düzdür, müasir elmdə hər şey mümkündür, amma mənim şəxsi qənaətimə görə, bir vaksin bütün orqanların xərçənginə təsir edə bilməz. Hər xəstəliyin fərqli səbəbi, fərqli müalicə üsulu var. Biz həkimlər illərdir insanları xərçəngdən qorumaq üçün öz tövsiyələrimizi edirik. Əvvəla, onu deyim ki, indiki dövrdə xərçəng diaqnozu hökm deyil. Xərçəng sağala bilən xəstəlikdir və terapiyası, müalicə metodları kifayət qədər inkişaf edib. İllərlə yaşayan xərçəng xəstələrinin sayı isə "n" qədərdir".



***Bu xəstəliklə mübarizədə yüksək standartlara cavab verən tibbi avadanlıqlar və peşəkar həkimlərin sayı kifayət qədərdir***

S.Arazov hazırda ölkəmizdə müalicəsi çətin və ya mümkün olmayan xərçəng xəstələyinin olmadığını deyib. Onun sözlərinə görə, Azərbaycanda xərçənglə mübarizədə yüksək standartlara cavab verən tibbi avadanlıqlar və peşəkar həkimlərin sayı kifayət qədərdir. Avropa, Türkiyə təhsilli ixtisaslı mütəxəssislərimiz də çoxdur: "Dünya statistikasına görə, süd vəzi, ağciyər, yoğun bağırsaq və prostat xərçəngi daha geniş yayılıb və müalicəsi də realdır. Sadəcə bizdə xərçəngin ilkin diaqnozu yubanır. Pasiyentlər tövsiyə etdiyimiz müayinələrə dırnaqarası baxır. Bizim isə məcburetmə səlahiyyətimiz yoxdur. 40-45 yaş arası insanlar, heç olmasa, bircə dəfə də olsa, kolonoskopiya (yoğun bağırsaq) müayinəsindən keçsinlər. Hər pasiyentə deyirik ki, vaxtında kolonoskopiya etdirməklə özünüzü bir sıra xəstəliklərin ağırlaşmalarından sığortalaya bilərsiniz. Ən azı bir neçə il sonra həmin adamda bağırsaq xərçəngi aşkarlandıqda xəstəliyin təzə və ya köhnə olduğunu müəyyən etmək olur. Çox təəssüf ki, biz heç bir xəstəni profilaktik olaraq bu cür müayinələrə yönləndirə bilmirik. İnsanlar sağlamlığı naminə dövlət müəssisələrində sığorta növbəsinə durmağı özünə iş bilir. Bəlkə də müraciət etsə, 3 gündən sonra növbəsi çatacaq? Bəziləri isə sadəcə olaraq bu xəstəliklərə etinasız yanaşırlar. "Əslimdə-nəslimdə belə bir xəstəlik yoxdu" deyib özlərini sığortalayırlar. Halbuki belə bir zəmanət yoxdur.

"Azərbaycanda xərçəng xəstəliyinə tutulanların əksəriyyəti ölür" iddiası ilə razılaşmadığını vurğulayan həkim belə bir statistikanın olmadığını deyib. Onun sözlərinə görə, ilkin diaqnoz qoyulan xərçəng xəstələri və onların yaxınları problemi ətrafındakı insanlardan gizlədir: "Əksəriyyət heç həmin adamların əməliyyat olunduğunu və kimya terapiya aldığını bilmir. Biz ancaq tanıdığımız biri ölümcül vəziyyətə düşəndə onun xərçəng xəstəsi olduğunu eşidirik. Yəni uzun müddət narahatlığı və ağrıları olan insan həkimə müraciət etmir, etsə belə, yüngül müalicələrlə ağrısını sakitləşdirir. Həkimin tövsiyə etdiyi heç bir endoskopik prosedurlardan keçmir və artıq xəstəlik metastas verəndə günü-gündən arıqlayır və ağrılar dözülməz hala çatanda müayinələrdən keçir. O zaman da artıq həkim müəyyən edir ki, bədxassəli törəmə artıq bütün orqanlara yayılıb. Həmin adam da 2 ay sonra rəhmətə gedəndə "uzun müddətdi xərçəng idi, sağala bilmədi" kimi söz-söhbətlər yayılır. Mənsə, bir həkim olaraq xərçəngdən sağalan və əmək fəaliyyəti ilə məşğul olan insanların çox olduğunu bilirəm".

**Şəymən**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MU-GA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 1108



## İt metroya necə daxil olub?

### Mətbuat xidmətinin rəhbəri hadisənin normal olduğunu deyib

**Bakı metrosuna it daxil olub. Belə ki, metronun "Nəsimi" stansiyasında çəkilən görüntülər sosial mediada marağa səbəb olub.**

Sahibsiz itin metroya necə girdiyi məlum deyil. İti görən sərnişinlər təəccüblərini gizlədə bilməyiblər.

Məsələylə bağlı "Şərq"ə Bakı Metropoliteninin Mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov bildirib ki, qapılar daim açıq qaldığı üçün heyvanların metroya daxil olması normaldır: "Düzdür, belə bir hadisə olub və metropoliten işçiləri tərəfindən stansiyadan uzaqlaşdırılıb. Belə hadisələr olur və mən özüm də bunları etiraf edirəm. Ən vacibi odur ki, heyvanlara qarşı hansısa davranış olmur. Yəni metropolitenin qaydalarına əsasən, məsələyə həssaslıqla yanaşılır və vaxtında müvafiq tədbirlər görülür".

**Nihat Müzəffər**

## Qırğızıstanda "Manas" dastanını 1250 nəfər xorla oxuyub



**Qırğızıstanın Cəlal-Abad vilayətinin Toquz-Toro rayonunda 1250 nəfər "Manas" dastanını eyni vaxtda xorla oxuyub.**

Tədbir Qırğızısan Prezidenti Sadır Japarovun "Qırğız xalqının maddi irsi olan "Manas" dastanı trilogiyasının ("Manas", "Semetey" və "Seytek") hərtərəfli tədqiqi və populyarlaşdırılması üzrə əlavə tədbirlər barədə" fərmanının reallaşdırılması çərçivəsində keçirilib. Mərasimdə təhsil işçiləri, məktəblilər və bağça müəllimləri iştirak ediblər.

## Dünyanın ən uzun burunlu insanı Mehmetdir

### Özyürek Ginnesin Rekordlar Kitabına düşüb



**1700-cü illərdə yaşamış Thomas Wadhouse, 19 santimetr burun uzunluğu ilə tarixin və dünyanın ən uzun burnuna sahib insanı olub.**

Hazırda isə ən uzun burunlu insan Türkiyəli Mehmet Özyürekdir.

Bakupost.az xəbər verir ki, Özyürek burnuna görə Ginnesin Rekordlar Kitabına düşüb. Onun burnu 8.8 santimetrdir. Türkiyənin Artvin bölgəsində yaşayan Özyürek halından məmnun olduğunu ifadə edib.





# "Arkadaş" Meksikada

## Türk bayrağı altında çalışacaq

**Qardaş Türkiyədəki dəhşətli zəlzələnin dağıntıları altından can qurtarmağa çalışanlar arasında sadiq dostlarımız köpəklər də vardı. Zəlzələnin darmadağın etdiyi Adıyaman bölgəsinə Meksika Milli Müdafiə Nazirliyi tərəfindən göndərilmiş axtarış-xilasetmə heyətinin tərkibindəki Proteo adlı köpəyi də yaqin çoxları xatırlayır. Proteo axtarış-xilasetmə heyətinin "sağ əli" idi və onun sayəsində neçə insan dağıntılar altından xilas edildi.**

Lakin Proteo Meksikaya geri dönə bilmədi. Fevralın 10-da Adıyamanda öldü. Xatırladaq ki, zəlzələ bölgəsində Proteonun xatirəsinə xüsusi lövhə vurulmuşdu. Qardaş Türkiyə türk şəxsiyyətinə uyğun daha bir addım atıb. Türkiyənin paytaxtı Ankarada alman çoban iti cinsindən doğulmuş küçüyə baytar həkimlər Güvən Kurnaz və Dəniz Çayır rəy sorğusunun nəticələrinə görə "Arkadaş" adını qoyub və onu Meksika Müdafiə Nazirliyinə hədiyyə ediblər. "Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, Arkadaş Ankarada 6 aylıq təlim keçib. Üzərində Türkiyə bayrağı həkk olunan yelek geyindirilmiş Arkadaş Meksikada hərbi mərasimlə qarşılanıb. Bundan sonra Arkadaş Proteonun yolunu davam etdirəcək, insan həyatlarının xilası üçün çalışacaq. DHA-ya danışan baytar həkimlər deyib ki, Proteonun vəfatından sonra xatirəsini yaşatmaq qərarına gəliblər. Meksika səfirliyi ilə əlaqə yaradaraq Proteo cinsindən bir köpək hədiyyə etmək istədiklərini bildiriblər. Baytar həkimlər Kurnaz və Çayır heyvandarlıq təsərrüfatından alman çoban iti cinsindən yeni doğulmuş 2 aylıq küçüyə sahiblənərək ona qulluq ediblər. Və sağlamlığına əmin olduqları küçüyü Meksika səfirliyinə aparıblar. 12 saatlıq yoçuluqdan sonra Arkadaş Meksikaya çatıb və burada xüsusi mərasimlə qarşılanıb. Hava limanına toplaşanlar əllərində Türkiyə və Meksikanın dövlət bayraqlarını dalğalandırıblar. Həkim Kurnaz DHA açıqlamasında "Proteonu Adıyamanda, dağıntılar altında can xilas etməyə çalışarkən biz də görmüşdük. Onun ölümü isə hamı kimi bizi də çox üzdü. Onun xatirəsini yaşatmaq və meksikalı xilasedicilərə vəfa borcumuzu yerinə yetirmək üçün bu küçüyü Meksikaya göndərmək qərarına gəldik. Meksika dövləti də bundan məmnun qalıb", söyləyib.





**Məlahət**

## Artıq ayrılıblar

### Aktrisa Torreyra ilə bağlı suala əsəbi yanaşıb



**Aralarında eşq yaşandığı danışılan "Qalatasaray" formasi geyinən uruqvaylı futbolçu Lukas Torreyra ilə aktrisa Devrim Özkanın ayrıldığı bildirilir. "Şərq" türk mediasına istinadən bildirir ki, Devrim Özkan "Qalatasaray"-"Kastamonuspor" komandaları arasında Türkiyə Kuboku uğrunda matçı izləməyə gəlib. Onun bu addımı Torreyra ilə münasibətlərinin normallaşması kimi yozulub. Daha sonra isə film təqdimatına qatılan Devrim Özkana "Qalatasaraylılar sizi gəlinləri olaraq görür. Bununla bağlı nə deyəcəksiniz" sualına "Mən bura film izləməyə gəldim. Gəlininiz kim olur, bilmərəm", cavabını vermişdi. Bu dəfə isə Devrim Özkan TRT-nin beynəlxalq rəqəmsal platforması "Təbii"-nin təqdimat mərasimində jurnalistərlə kobud davranb. Aktrisa Torreyra ilə bağlı suala əsəbi yanaşıb və "siz bura bu sualı vermək üçünmü gəlmisiniz? Mən bunun üçün gəlməmişəm" deyərək, mərasimin keçirildiyi salonu tərk edib.**

**Məlahət**

## "Kuruluş Osman"ın aktyorları nişanlandı



**"Kuruluş Osman" serialında rol alan aktyorlar Çağrı Şensoyla Buse Arslan nişanlanıb.**

**Axşam.az xəbər verir ki, cütlük özəl gündən olan fotoları sosial media hesablarında paylaşıblar.**

***Qeyd edək ki, Çağrı sözügedən ekran işində "Cerkutay Alp", Buse isə "Aygül" obrazına həyat verib. Buse daha əvvəl Kazım Akdenizlə 5 il ailəli olub.***

## Oğuzhan Koç ayrılıq qərarı alıb



**Xəbər veridyimiz kimi, türkiyəli aktrisa Demet Özdemirlə həyat yoldaşı, müğənni Oğuzhan Koç ayrılıq qərarı alıb.**

**Axşam.az xəbər verir ki, ikilinin rəsmi şəkildə boşanacaqları tarix bəlli olub.**

**Demetlə Oğuzhanın mayın 8-də Türkiyə saatı ilə 10-da Adalar Ədliyyəsində boşanacağı bildirilib.**

***Qeyd edək ki, Demet və Oğuzhan ötən il nikah masasına əyləşib.***



# Vikinqlərin sirri

## Mütəxəssis qənaətə gəlib ki, bu nəhəng və güclü insanlar faydalı qidalarla bəslənirmiş

**Orta əsrlərdə məşhur olmuş vikinqlər soyuq və çətin iqlim şəraitində zəhmli görkəmlərini, möhkəm bədən quruluşu, uca boyları, güc və qüvvələrini hardan alırdı? "Milliyet.com.tr" xəbər verir ki, dosent doktor Səlahəddin Özkan vikinqlərin sirrinin həyat tərzləri və qidalanmalarında saxlandığını açıqlayıb. Vikinqlərin həyat tərzini araşdıran mütəxəssis bu qənaətə gəlib ki, bu nəhəng və güclü insanlar faydalı qidalarla bəslənirmiş.**



Təbii ki, vikinqlər də bütün digər xalqlar və topluluqlar kimi öz ərazilərində yetişən və əldə edə biləcəkləri qidalara əsasən üstünlük verib. "Vikinqlərin yalnız müharibələr, döyüşlərdə əldə etdikləri qənimətlərlə qarınlarını doyurduqlarını düşünmək böyük yanlışlıq olar. Yer üzündə yaşamış və yaşamaqda olan bütün xalqlar kimi onlar da məskunlaşdıqları coğrafi məkanın verə biləcəyi nemətləri əldə etməyə çalışıblar. Vikinqlər əsasən Skandinaviya yarımadasında yaşayıblar. Buranın şərq və cənub torpaqları isə münbitdir. Vikinqlər də əkib-becəriblər. Məsələn, çovdar əkiblər. Çovdar soyuq iqlimə davamlıdır. Çovdar çörəyi ilə qidalanıblar, meşələrdən meyvə toplayıblar. Onların hansı meyvələrlə qidalandıqlarına tarixi mənbələrdə rast gəlinir. Meşəlik ərazilərdə yaşadıqları üçün meşə balı onlar üçün əlçatan olub. Vikinqlər baldan spirtli içki düzəldən ilk sivilizasiyadır. Vikinq mifologiyasında baldan düzəldilmiş şəraba müqəddəs bir yanaşma var. Vikinqlər maral, keçi, qoyun, inək, at, donuz saxlayıb və onların ətiylə qidalanıb. Dəniz məhsullarına isə xüsusi önəm veriblər. Dəniz məhsullarının çox faydalı olduğu məlumdur. Dəniz sahilində yaşaan vikinqlər balina ovlayıb və balina əti də yeyiblər. Balina əti çox yağlıvə enerjilidir. Bunu yeyənlərin güclü olmamaq ehtimalı yoxdur. Vikinqlərin qış tədarükü ənənəsi də olub. Ovladıqları heyvanların, o cümlədən balina ətini də xüsusi üsulla qurudub qışa tədarük ediblər. Döyüşə gedəndə də azuqə olaraq özləriylə götürüblər. Balığın qurudularaq qışa saxlanması ənənəsi bu gün də Skandinaviya ölkələrində davam edir. Skandinavlar ət xarab olmasın və uzun müddət sağlam qalsın deyə, buz parçalarının arasında saxlayırlar. Səlahəddin Özkan "vikinqlər yeməyə başlamazdan əvvəl 3 qədəh qaldırırmış. Birinci qədəh baş Tanrıya, ikincisi, həmin gün özəl bir hadisə varsa, onun şərəfinə, üçüncü qədəh isə yeməyi təşkil edib dəvət edənin şərəfinə qaldırılır, bundan sonra yeməyə başlayırdılar. Yemək zamanı hər kəs növbəsini gözləyib. Əvvəlcə böyüklər - dini qruplar və idarəedənlər, sonra əsgərlər, onlardan sonra azad insanlar, sonuncu olaraq kölələr və qadınlar yemək yeyə bilərdi. Masada nə artıq qaldısa, kölələrə və qadınlara qismət olurdu.

**Məlahət**

## Qulaqağrısı ilə xəstəxanaya getdi

### Hörümçək bir qadının qulağında yuva qurub və hətta balalayıb



**Çində baş verən hadisə, hətta həkimləri heyrətə gətirib. Belə ki, hörümçək bir qadının qulağında yuva qurub və hətta balalayıb.**

Oxu.az xəbər verir ki, qeyri-adi hadisə Sıçuan əyalətində baş verib.

Çinli qadın qulağında ağrı və daimi küylə bağlı həkimlərə şikayət edib. Həkimlər endoskopik müayinə zamanı orada yalançı qulaq pərdəsi aşkar ediblər. Diqqətlə araşdırdıqda isə bunun əslində hörümçək toru olduğu ortaya çıxıb.

Torun altında isə balalarını qorumaq üçün pinsetə hücum edən hörümçək aşkarlanıb. Qadının qulağından həşərat çıxarılıb. Hörümçək zəhərli olmayıb, ancaq qadının qulaq kanalına cüzi zərər vurub.

## Kartof qızartması və plovu soyuq yeməlisiz



**Bəzi qidalar adət etdiyiniz kimi isti şəkildə yox, soyuq yeyilməlidir.**

"Medicina" xəbər verir ki, diyetoloq İqor Strokovun sözlərinə görə, istər spagetti, istərsə də qızardılmış kartof karbohidratla zəngin qidalar hesab edilir.

Onları isti yemək əvəzinə soyuq yeməklə kaloriləri daha az qəbul etmək və bağırsaq florasını gücləndirmək olar.

"Əriştə, kartof və ağ düyü də kökəldən qidalar hesab olunur. Onların tərkibində nişasta, çoxlu karbohidrat var və qan şəkəri səviyyəsində kəskin sıçrayışa səbəb olur. Amma bu qidaları yeməkdən əvvəl soyumağa qoysanız, daha sağlıqlı olar.

Nişastalı qidalar soyuduqda parçalanma məhsulu kimi davamlı nişasta əmələ gəlir. Bağırsaq florasına müsbət təsir göstərir, qan şəkərini tənzimləyir və hətta arıqlamağa kömək edə bilər". Bağırsaq florasını gücləndirir. Davamlı nişasta lif kimi davranır. Həzm olunmamış şəkildə yoğun bağırsağa çatır və burada aktiv bakteriyalar tərəfindən tədricən parçalanır. Bağırsaq florasını gücləndirir və həzmə müsbət təsir göstərir. Qan şəkərini tənzimləyir. Orqanizm daha az insulin istehsal edir və beləliklə də yemək istəyinin qarşısını alır. Kaloriyə qənaət edir. Nişastalı qidalar soyuduqda, bişiriləndən daha az kalori verir.

## Teylor Svift onunla sevgilidir



**Müğənni Teylor Svift yeni eşqə yelkən açıb.**

Axşam.az xəbər verir ki, ifaçı "The 1975" qrupunun solisti Metyu Heli ilə münasibətdədir. Teylorun sabah keçirilməsi planlaşdırılan konsertində bu barədə danışacağı deyilib. Cütlüyün bir neçə həftədir birlikdə olduğu bildirilib.

İddialara görə, ikili 10 il əvvəl də münasibət qurmağa çalışıb, lakin alınmayıb.

*Qeyd edək ki, Teylor bundan əvvəl 6 il aktyor Co Elvinlə sevgili olub.*